QARABAĞ AZƏRBAYCANDIR!



RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 233 (8549) BAZAR, 8 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır



Bayraq dövlətin varlığının, tarixinin və taleyinin göstəricisidir, onun özünütəsdiq simvoludur. Bayraq millətin kimliyinin, təfəkkür və düşüncə tərzinin ən dəqiq mənəvi ölçü meyarıdır. Qürur və güvənc yeri kimi bayraq dünyanın hər yerində ən müqəddəs milli dəyərdir, azadlığın rəmzidir…

### Tariximizə dərin ehtiramın nümunəsi

Bütün dünyaya müstəqil dövlətimizin varlığını bəyan edən Azərbaycan bayrağı bu deyilənlərin hər birini öz rənglərində vüqarla, iftixarla daşıyır. Xalqımızın azadlığını, suverenliyini, istiqlalımız uğrunda apardığımız tarixi mübarizəni, mənəvi dünyagörüşümüzü tərənnüm edən ay-ulduzlu bayrağımız həm də milli kimliyimizin ən böyük tərənnümçüsüdür. Təsadüfi deyil ki, dövlət bayrağı bütün vətəndaşlarımız üçün müqəddəs dövlətçilik rəmzidir.

Azərbaycanın zəngin dövlətçilik tarixində hər birinin şərəfli yeri olan bütün dövlətlərimizin müxtəlif rəmzləri sırasında bayraq əsas yeri tutub. Müasir Azərbaycan dövlətinin üçrəngli bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. Həmin gün hökumətin başçısı Fətəli Xan Xoyskinin məruzəsi əsasında Azərbaycanın üçrəngli - mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul olunub. 1920-ci ilin aprel ayınadək üçrəngli bayrağımız rəsmi dövlət rəmzi statusuna malik olub. Həmin ilin aprelində Xalq Cümhuriyyəti süqut etdikdən və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bu bayraqdan imtina edilib.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra üçrəngli bayrağımız milli suverenliyimizin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrildi. Bayrağımıza olan dərin sevginin, onun uca tutulmasının göstəricisidir ki, noyabr ayının 9-u - üçrəngli bayrağımızın ilk dəfə Cümhuriyyət Hökumətinin iclasında qəbul edildiyi gün Dövlət Bayrağı Günü kimi qeyd edilir. Bu tarixin təqvimə Dövlət Bayrağı Günü kimi həkk olunması Prezident İlham Əliyevin dövlətçilik ənənələrimizə və tariximzə olan dərin ehtiramının nümunəsidir.

Ardı 4-cü səh.

# Prezident İlham ƏLİYEV: “Müzəffər Azərbaycan Ordusu daha 16 kəndi işğaldan azad edib”

“Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” hesabında bildirib.




# Azərbaycan Ermənistanı döyüş meydanında cəzalandırır

### Torpaqlarımızın işğaldan azad edilməsindən sonra bu ərazilərdə təcavüzkar ölkə tərəfindən qanunsuz məskunlaşdırma siyasəti faktlarla təsdiqini tapır

Azərbaycan Ordusu öz məqsədlərinə doğru inamla və sürətlə irəliləyir. Cəbhənin bütün istiqamətlərində Ermənistanın hərbi qruplaşmaları darmadağın edilir.

İşğal olunmuş ərazilərin cənub hissəsi tamamilə azad olunub, digər bölgələrdə isə strateji mövqelər və yüksəkliklər ələ keçirilib. İlk gündən döyüşlərdə təşəbbüsü ələ alan ordumuzun uğurlu əməliyyatlarının nəticəsində torpaqlarımızın azad edilməsi göstərdi ki, Azərbaycan Ermənistan qarşısında əzici hərbi üstünlüyə malikdir.

### Daha 16 kəndimiz azad olundu

Qısa müddətdə Cəbrayıl, Zəngilan, Füzuli və Qubadlı rayonları, Xocavəndin, Tərtərin, Xocalının kəndləri işğaldan azad edildi. Azərbaycan-İran dövlət sərhədi işğalçıdan təmizləndi və Xudafərində üçrəngli bayrağımız ucaldıldı. Noyabrın 7-də Prezident İlham Əliyev özünün rəsmi “Twitter” hesabında daha 16 kəndin azad olunduğunu bəyan etdi. Bəli, Azərbaycan Ordusuunun müzəffər yürüşü davam edir.

Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində döyüş əməliyyatları barədə deyib: *“Faktiki olaraq, işğal olunmuş rayonlardan 5-dən 4-ü artıq ya tamamilə, ya da qismən azad edilib. Bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik. Qeyd etdiyim kimi, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və yeri gəlmişkən, biz artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik.*

Ardı 7-ci səh.

# Mənəviyyatdan və insanlıqdan uzaq olan düşmən

Tarix boyu azərbaycanlılar erməni millətçi-şovinistlərinin etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb, dədə-baba torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib. Və bütün bunlar kütləvi qırğınlarla, insanlığa yaraşmayan vəhşiliklərlə müşayiət olunub. Nə yazıq ki, qarşımıza həm də mənəviyyatdan və insanlıqdan uzaq, ümumilikdə, bəşəriyyətə ləkə olan düşmən çıxıb.

### Mülki insanların qanına susayan vandallar

Baxmayaraq ki, mülki əhaliyə, xüsusilə onun ən müdafiəsiz hissəsi olan qocalara, qadınlara və uşaqlara saysız-hesabsız əzab-əziyyət gətirən hücumların edilməsi və onların bombardman olunması beynəlxalq hüquqa əsasən də qadağandır, hərbi cinayətdir. Beynəlxalq humanitar hüquq, bu hüququn əsas sənədləri olan 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyaları və onlara 1977 və 2005-ci illərdə əlavə edilmiş üç protokol, BMT Baş Məclisinin 14 dekabr 1974-cü il tarixli qətnaməsi, eləcə də digər beynəlxalq konvensiyalar müharibə zamanı mülki əhaliyə hücumu qadağan edir. Eyni zamanda müharibənin yazılmamış qanunlarında da günahsız insanlara, qocalara, qadınlara, uşaqlara əl qaldırmaq, silah tuşlamaq qətiyyən yolverilməzdir.

Amma faşist ideologiyalı erməni vandalları nə hüquq tanıyır, nə də onlarda mənəviyyat var. Tarix boyu xalqımızın qanına susamalarının, mülki əhalimizə divan tutmalarının şahidi olmuşuq. Erməni faşistləri qocaları, qadınları, uşaqları öldürməklə, xüsusilə də qəddarcasına, insan ağlına sığmayan işgəncələrlə həyatlarına son qoymaqla fəxr ediblər. Bu iyrənc əməllərini dünyaya bəyan etməkdən də heç zaman çəkinməyiblər.

Ardı 3-cü səh.

# Yeni karantin qaydaları əhalinin sağlamlığını qorumaq məqsədi daşıyır

Qlobal problemə çevrilmiş yeni növ koronavirus infeksiyasının yayılmasına qarşı bütün dünyada intensiv qabaqlayıcı tədbirlər görülməsinə baxmayaraq, pandemiyanın qarşısını almaq və onun törətdiyi fəsadları minimuma endirmək səyləri hələ də nəticə vermir. Dünya ölkələrində COVID-19 pandemiyasının getdikcə daha geniş yayılması, koronavirus infeksiyasına yoluxma və ölüm hallarının kəskin artması müşahidə olunur. Pandemiyanın başlanmasından indiyədək dünyada 49 milyondan çox insan koronavirusa yoluxub, 1 milyondan çox insan dünyasını dəyişib.



Ötən gün isə dünyada rekord sayda koronavirusa yoluxma faktı qeydə alınıb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, sutka ərzində 581 min 679 nəfərdə COVID aşkarlanıb. Sonuncu dəfə bu cür rekord yoluxma oktyabrın 31-də (557 mindən çox) qeydə alınıb.

Hazırda bütün dünya pandemiya ilə mübarizə aparır, iqtisadi tənəzzülün qarşısının alınması, böhranın daha da dərinləşməməsi üçün çoxsaylı tədbirlər həyata keçirilir, insanların ölümcül COVID-19 virusunun qurbanına çevrilməmələri üçün sərt məhdudlaşdırıcı addımlar atılır. Bir çox ölkələr xüsusi karantin rejimləri tətbiq edir, qaydaları sərtləşdirirlər.

### 10 şəhər və rayonda yeni karantin qaydaları tətbiq olunacaq

Bütün dünyada olduğu kimi, Azərbaycanda da koronavirusa yoluxanların sayında artım müşahidə edilir. Odur ki, hökumət koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Bu gün yaradılmış tibbi infrastruktur, ölkəmizin potensial imkanları pandemiya ilə əlaqədar yaranan çətinliklərin öhdəsindən gəlməyə və vəziyyəti nəzarətdə saxlamağa tam şərait yaradır. Lakin infeksiyanın yayılma sürəti bir sıra vacib məhdudlaşdırıcı tədbirlərin görülməsini zəruri edir. Elə ona görə də mövcud sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq Nazirlər Kabineti müxtəlif şəhər və rayonların ərazisində xüsusi karantin rejiminin yeni qaydalarının tətbiq edilməsinə dair qərar qəbul edib. Qərara əsasən, noyabrın 7-dən 23-dək sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində müxtəlif sahələr və istiqamətlər üzrə fəaliyyət dayandırılır. Bu vaxtadək həmin inzibati ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti yalnız həftə sonları dayandırılırdı.

Ardı 9-cu səh.

# Ermənilər yenidən xarici ölkələrdə terrorçuluğa və təxribatçılığa başlayıblar

Azərbaycan Ordusunun Qarabağdakı qələbələri və torpaqlarımızı işğaldan azad etməsi Ermənistanda və dünya erməniliyində böyük təşvişə yol açıb. Ölkəmizin qətiyyəti qarşısında düşmənin geri çəkilməkdən başqa yolu qalmayıb. Cəbhədə Azərbaycana açıq-aşkar məğlub olduqlarını görən ermənilər yenidən xarici ölkələrdə azərbaycanlılara qarşı təxribatlar və terror aktları törətməyə başlayıblar.

### Riyakar xislətin təsdiqi

Son iki həftə ərzində ermənilərin Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə və müxtəlif şəhərlərdə yaşayan soydaşlarımıza qarşı həyata keçirdikləri təxribatlar çirkin erməni xislətinin bariz təcəssümüdür. Bu günlərdə Ukraynanın Xarkov şəhərində Azərbaycanın Fəxri konsulluğunun binasının atəşə tutulması da bu terrorçu ssenarinin davamıdır. Hadisə gecə saatlarında baş verib. İki naməlum şəxs binaya altı dəfə atəş açıb. Həmin vaxt konsulluqda heç kim olmayıb. Hadisə binanın təhlükəsizlik kameraları tərəfindən qeydə alınıb. İnsidentlərlə bağlı araşdırma aparılır. İlkin ehtimala görə, hadisəni törədənlər erməniəsilli şəxslərdir.

Xatırladaq ki, oktyabrın 25-də Estoniyanın paytaxtı Tallində maskalı naməlum şəxs İslam mərkəzinin, eləcə də Azərbaycan və Türkiyə səfirliklərinin qarşısına donuz başları qoymuşdu. Kimliyi hələlik bəlli olmayan həmin şəxs İslam mərkəzinin müşahidə kameralarına düşüb. Şahidlərin sözlərinə görə, kişi rus dilində deyib: “Bu, sizin peyğəmbəriniz Məhəmmədə hədiyyədir”. Yerli medianın məlumatına görə, bu təxribatçı hərəkətdə Ermənistanın Litva, Latviya və Estoniyadakı səfiri Tiqran Mkrtçyanın əlinin olduğuna dair əsaslı şübhələr var.

Ardı 11-ci səh.

**Düşmənin 3 “Su-25” tipli hücum təyyarəsi məhv edilib, 315 tankı - 262-si məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 341 ədəd müxtəlif çaplı toplar - 264-ü məhv edilib, 4 ədəd “Qvozdika” özüyeriyən haubitsası, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 102 “Qrad” qurğusu; 2 “Uraqan” Yaylım Atəşli Raket Sistemi; 1 “Tos”; zenit-raket kompleksləri - 4 “Tor”, 43 “Osa”, 1 ədəd “Zastava M-55” tipli zenit qurğusu, 3 ədəd PDM, 2 ədəd “Smerç”, 6 “Kub”, 1 “Kruq”, 2 “S-125” qurğusu; 6 “S-300” atıcı qurğusu; 14 ədəd müxtəlif artilleriya qurğusu, 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd “Elbrus”; yeni istismara verilmiş raket-artilleriya silahları anbarı, 1 ədəd “Toçka-U”, P-18 radiolokasiya stansiyası məhv edilib; 3 ədəd “KamAz” maşını, qoşqusunda top olan 6 ədəd “Ural” maşını, 1 ədəd UAZ markalı avtomobili, 441 yük avtomobili - 248-i, onlardan 25-i sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

**Prezidentə yazırlar**



# “Uzun müddətdən bəri gözlədiyimiz bu günləri bizə yaşatdığınız üçün Sizə minnətdarıq”

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin İstanbul şəhərindən **Erdal Aksoy** yazır: “Hörmətli cənab Prezident, Sizi Türkiyədən salamlamaqdan qürur duyuram. Biz bir millət, iki dövlətik. Sizin dərin zəkanız, mükəmməl diplomatik fəaliyyətiniz və xalqınıza olan sevginiz hamını qarşıdakı parlaq qələbəyə ümidləndirir. Cənab Prezident, hər gün televiziyadakı çıxışlarınızı, yeni qələbə xəbərlərini böyük qürur hissi ilə izləyirik. Sizin türk kanallarına, eləcə də dünyanın bir çox məşhur KİV-inə verdiyiniz müsahibələri diqqətlə dinləyirik. Sizinlə fəxr edir, qürur duyuruq. Siz haqlı tərəfsiniz, Sizin zəfər çalacağınıza əminik. Sizə çox çətin və məsuliyyətli işinizdə böyük uğurlar arzu edirəm. İnşallah, tezliklə bütün Azərbaycan xalqına böyük qələbə sevinci yaşadacağınıza ürəkdən inanırıq. Biz Sizinləyik və Sizə duaçıyıq. Sizi və qardaş Azərbaycan xalqını ürəkdən dəstəkləyirik. Allah Sizi və bütün əsgərləri qorusun! Vətən müharibəsində Azərbaycan Ordusuna Qələbə arzulayırıq! Qarabağ Azərbaycandır! Zəfər Azərbaycanındır!”

Almaniyanın Köln şəhərindən **Etibar Həşimov:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Qarabağın azadlığı uğrunda yürütdüyünüz siyasətə, qələbəmizə və şanlı tarix yazdığınıza görə Sizə dərin təşəkkürümü bildirirəm. Siz “XXI əsr türk dünyası əsri olacaq” ifadənizi sübut edərək bu qələbələrlə dünyaya türkün gücünü göstərdiniz. Bir Azərbaycan vətəndaşı olaraq Sizi dəstəkləyir, Sizinlə fəxr edirəm. Allah yar və yardımçınız olsun, inşallah! Qarabağ Azərbaycandır!”

Qubadlı sakini **Mahmud Əsədov:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, 27 ildən sonra bizə yaşatdığınız sevinc hissinə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı Sizi sevir və yürütdüyünüz siyasətin daim arxasındadır. Allah Sizi Azərbaycan xalqına çox görməsin. Biz əminik ki, Qarabağın azad ediləcəyi gün elə də uzaq deyil. Allah Sizi və ordumuzu qorusun! Qarabağ Azərbaycandır! Yaşasın Ali Baş Komandan!”.

Sabirabad rayonundan **Aqşin Rəhimov** yazır: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Sizin müdrik rəhbərliyiniz və şanlı ordumuzun rəşadəti ilə torpaqlarımız mənfur erməni qəsbkarlarından azad olunur. Biz əmin idik ki, Siz bu haqq davasını başa çatdıracaq və müzəffər bir sərkərdə kimi tariximizə şanlı səhifələr yazacaqsınız. Biz inanırıq ki, çox yaxın zamanda Azərbaycanın üçrəngli şanlı bayrağı Qarabağın ən uca zirvəsində dalğalanacaq. Qarabağ Azərbaycandır!”

Samux rayonunun sakini **Xatay Vəliyev** dövlət başçısına yazır: “Müzəffər Ali Baş Komandan, işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda apardığınız mübarizənizi dəstəkləyir və qazanılan qələbələr münasibətilə Sizi, Azərbaycanın mübariz ordusunu və xalqımızı təbrik edirəm. Bu haqq savaşımızda bizə mənəvi dəstək olan Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğana və türk qardaşlarımıza da şəxsən öz minnətdarlığımı bildirirəm. Yaşasın bir millət, iki dövlət - Azərbaycan və Türkiyə! Bizə mübarizəmizdə mənəvi dəstək olan Pakistan xalqına və onun Prezidentinə də öz minnətdarlığımı bildirirəm. Biz də Samux rayonunun gəncləri olaraq, vətənimiz, ordumuz üçün əlimizdən gələni etməyə hazırıq və döyüşən əsgərlərimizə hayanıq. Rayonumuzun yetirməsi olan hərbçilərimiz ön cəbhədə düşmənə qarşı vuruşur. Cənab Ali Baş Komandan, Allah Sizi, Azərbaycan xalqını, qəhrəman hərbçilərimizi və bütün türk dünyasını qorusun!”

Ağdam sakini **Təşəkkül Məmmədov:** “Müzəffər Ali Baş Komandan, ərazi bütövlüyümüzün bərpası yolunda atdığınız qətiyyətli addımlardan hər bir azərbaycanlı kimi mən də qürur hissi keçirirəm. Biz Sizinlə fəxr edirik. Sizin müdrik siyasətiniz və şanlı ordumuzun igid oğulları sayəsində qazandığımız qələbələr bizi çox sevindirir. Eyni zamanda, sevinirik ki, vətənin cəsur övladları torpaqlarımızla bərabər, erməni vandallarının qurbanı olmuş neçə-neçə körpə balaların, qız-gəlinlərin, şəhidlərimizin qisasını alırlar. Uca Tanrı bu yolda Sizlərə yardımçı olsun. Yaşasın Ali Baş Komandanımız! Yaşasın müzəffər Ordumuz!”

Bakı şəhər sakini **Bəhruz Hüseynov:** “Möhtərəm cənab Prezident, humanist rəhbər, Müzəffər Ali Baş Komandan, Azərbaycan dövlətinin və xalqının 2003-cü ildə növbəti dəfə bəxti gətirdi ki, Ulu Öndər Heydər Əliyevdən sonra bizə uzaqgörən siyasəti, müdrik qərarları, xalqına yaxın olmağı ilə dünya liderlərindən fərqlənən bir lider rəhbərlik etdi. Hər addımında qələbə duyulan, “Mən hər bir azərbaycanlının Prezidentiyəm” söyləyən rəhbərin xalqını növbəti qələbələrə doğru aparacağına ürəkdən inanırıq və Sizi hər zaman dəstəkləyirik. Azərbaycan heç zaman bu qədər güclü olmamışdır və qüdrətli ölkəmizin son illər əldə etdiyi bu nailiyyətlər, qazandığı uğurlar Ulu Öndərin və Sizin adınızla bağlıdır. Bizə məhz Sizin kimi Vətəninə ürəkdən bağlı olan, praqmatik, enerjili, qətiyyətli, müdrik və humanist bir lider lazımdır. Doğma Vətənimizi işıqlı gələcəyə doğru inamla aparan, cənab Ali Baş Komandan, Allah bu yolda Sizə kömək olsun! Allah Sizi, xalqımızı və millətimizi qorusun!”

Bərdədən **Elxan Hacıyev:** “Hörmətli cənab Prezident, müqəddəs torpaqlarımızın işğaldan azad edilməsi uğrunda apardığımız bu müqəddəs müharibədə Sizə və müzəffər ordumuza yeni qələbələr arzu edirik. Əminəm ki, işğal edilmiş bütün torpaqlarımızı azad edəcəyik və üçrəngli bayrağımızı Şuşa şəhərində dalğalandıracağıq. Allah Sizə və Şanlı Ordumuza qüvvət versin! Qarabağ Azərbaycandır!”

Ağdam sakini **Zahir Kazımov:** “Hörmətli cənab Prezident, Sizin ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizəni ailəliklə dəstəkləyir və alqışlayırıq. Azərbaycan xalqına yaşatdığınız fərəh və qürur hisslərinə görə Sizə minnətdarıq. Allah Sizi və qüdrətli Azərbaycan Ordusunu qorusun! Zəfərlərlə dolu tarixi günlərin şahidi olduğumuz üçün çox xoşbəxtik. İnanırıq ki, 30 ilə yaxın çəkdiyimiz ağrı-acılı torpaq həsrətinə tezliklə böyük Qələbənizlə son qoyacaqsınız. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Beyləqandan **Zamiq Cahangirli:** “Salam, cənab Prezident, son beş yüz ilin Azərbaycan tarixinə bir dövlət başçısı, bir sərkərdə kimi misli görünməmiş bir imza atırsınız. Sizin bütün fəaliyyətiniz siyasi, hərbi, tarixi və başqa dissertasiyaların yazılmasına rəvac verir, yeni elmi araşdırmaların predmetinə çevrilir. Hazırda yazılan yeni tariximizə görə Siz bir dəfə deyil, bir neçə dəfə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməlisiniz. Azərbaycanın inkişafı və xalqımızın rifahı naminə etdikləriniz üçün Sizə çox minnətdaram. Allah yar və yardımçınız olsun. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu! Yaşasın Ali Baş Komandan! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Sumqayıt şəhərindən **Nəhmət Bayramov:** “Müzəffər Ali Baş Komandan, otuz ildə birinci dəfədir ki, öz ad günümü alnıaçıq, üzüağ qarşıladım. Bu, Sizin iradənizin real nəticəsidir. Mən Birinci Qarabağ müharibəsi veteranıyam. Hazırda bir az yaşım çox olsa da, mən də cavanlarımız kimi döyüşə hazıram. Bizim gücümüz bizim birliyimizdədir. Bu birliyi yaradan Sizsiniz. Allah Sizi qorusun!”

Bakı şəhər sakini **Mayıl Məmmədov:** “Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, uzaqgörən siyasətiniz, gərgin əməyiniz nəticəsində Azərbaycan xalqının qəhrəmanlığını, igidliyini, cəsarətini sübut etdiniz. Vətənpərvərlik ruhunda atdığınız bütün addımlarla, verdiyiniz qürurverici qərarlarla uzun müddətdən bəri gözlədiyimiz günləri bizə yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Sizin komandanlığınız altında son günlərdə cəbhədə tarix yazan, Azərbaycan bayrağını Qarabağımıza qaytaran şanlı, müzəffər Azərbaycan Ordusuna eşq olsun! Siz Azərbaycan dövlətinin bütövlüyünü və əbədiliyini təmin edir və gələcək nəsillər üçün daha da qüdrətli və təhlükəsiz bir Azərbaycan inşa edirsiniz. Mən I qrup Qarabağ müharibəsi əliliyəm. Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə əsir götürülmüşdüm. Ağır dözülməz işgəncələrə məruz qalmışam. Vəhşi ermənilər qollarımı, ayaqlarımı sındırıblar, sinəmə hələ də izi qalan qaynar xaç damğası vurublar. Bunların nəticəsində sağalmaz xəstəliklərə düçar olmuşam. Ailəliyəm, iki övladım var. Dövlətimdən, Sizdən çox razıyam, bütün qərarlarınızı dəstəkləyirəm. Respublikamızda əmin-amanlığın, sabitliyin bərqərar olmasında Sizin böyük rolunuz var. Buna görə bütün Azərbaycan xalqı Sizə minnətdardır. Siz bu Vətənin mərd, igid, qəhrəman oğlusunuz. Bütün Qarabağ qazilərinin isə böyük hörməti və ehtiramı var. Müzəffər Ali Baş Komandan, Sizin ərazi bütövlüyümüz uğrunda apardığınız haqq mübarizənizə mən də qoşulub döyüşlərdə iştirak etmək istəyirəm. Mənim buna tam haqqım var. Çünki işğalçı erməni alçaqların mənə verdiyi ağır işgəncələr mənim heç vaxt yadımdan çıxmayacaq, bu işgəncələr mənim həyatımda iz qoyub. Qisas almaq günüdür”.

Şəkidən **Sumayə Muxtarova:** “Müzəffər Ali Baş Komandan, mən Sizinlə qürur duyuram. Sizin xarici ölkələrin jurnalistlərinə verdiyiniz müsahibələr zamanı göstərdiyiniz qətiyyətli mövqeyiniz, tarixə söykənən savadlı və məntiqi cavablarınız göstərir ki, biz haqlı olaraq Sizinlə fəxr edirik. Bütün çıxışlarınızı və müsahibələrinizi izləyirəm. Elə səbir, elə təmkinlə verilən sualları cavablandırırsınız ki, Sizə heyran qalmamaq mümkün deyil. Siz xalqımıza kəndlərin və şəhərlərin azad olunması xəbərini çatdırır, bununla da hər bir azərbaycanlı ailəsinə sevinc və fərəh anları yaşadırsınız. Deməli, Siz və igid əsgərlərimiz sevinc və qürur paylayıcılarısınız. Mən Ali Baş Komandanımız başda olmaqla qüdrətli Azərbaycan Ordusuna, xalqımıza və Azərbaycanı sevən bütün yaxşı insanlara cansağlığı və böyük uğurlar arzulayıram. Tezliklə torpaqlarımız işğaldan azad ediləcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq. Buna ürəkdən inanırıq. Bu inamı bizə Siz və cəsur zabit və əsgərlərimiz verir. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların valideynlərinə və ailələrinə səbir, təmkin versin. Amin! Yaralı əsgərlərimizə isə Allahdan şəfa diləyirəm. Güc birlikdədir. Qarabağ Azərbaycandır!”

# Nazirlər Kabinetinin 446 № li Qərarına dair izah

“Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nda dəyişiklik edilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilərək qeyri-hökumət təşkilatlarının təsis sənədlərində edilən hər hansı bir dəyişikliklərin, qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərin, bank hesabları üzrə maliyyə əməliyyatlarının aparılması, qrant müqavilələrinin (qərarlarının), xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydə alınmasının və ianələr üzrə məlumatların təqdim edilməsi, elektron müraciət əsasında əldə edilmiş sənədlərdən və yaxud kağız daşıyıcılarda Ədliyyə Nazirliyinin “Fərdi elektron pəncərə” elektron məlumat sistemi vasitəsilə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilməsi müəyyən edilib.

Bildirilir ki, bu kimi sənədlərin təqdim olunması bu vaxtadək yalnız kağız daşıyıcılarda həyata keçirilirdi. Bununla əlaqədar olaraq Nazirlər Kabinetinin müvafiq qərarlarında dəyişiklik edilərək uyğunlaşdırılma aparılıb.

# Hikmət Hacıyev ermənilərin Bərdəyə hücumları ilə bağlı UNICEF-ə və BMT-yə çağırış edib

“Erməni terrorunun daha bir günahsız qurbanı. 16 yaşlı gənc Şahmalı bu gün Ermənistanın Azərbaycanın dinc sakinlərinə məqsədyönlü şəkildə hücumu nəticəsində Bərdədə öldürülüb. Bərdə döyüş əməliyyatları zonasından uzaqdır. Hərbi hücuma zərurət yox idi”.



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” hesabında yazıb.

Hikmət Hacıyev UNICEF-ə və Birləşmiş Millətlər Təşkilatının İnsan Haqları Şurasına bununla bağlı müraciət edib.

# *Prezidentin köməkçisi:* “Azərbaycanın işğaldan azad edilmiş torpaqlarındakı bütün kilsə və məscidlər bərpa ediləcək”

“Azərbaycanın işğaldan azad edilmiş torpaqlarındakı bütün kilsə və məscidlər bərpa ediləcək”. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” hesabında yazıb.

Hikmət Hacıyev bildirib: “Qəbələ rayonunda XII əsrə aid Müqəddəs Məryəm Ana kilsəsi tam təmir olunub və Azərbaycanın xristian icmasının istifadəsinə verilib. Onun təmirini bir müddət əvvəl Heydər Əliyev Fondu başlamışdır. İşğaldan azad edilmiş Azərbaycan torpaqlarındakı bütün kilsələr və məscidlər bərpa ediləcək”.

*Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi:*

# “Azərbaycan-İran münasibətləri dostluq və mehriban qonşuluq xarakteri daşıyır”



“Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlər dostluq və mehriban qonşuluq xarakteri daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin qarşılıqlı səfərləri, çoxsaylı görüşləri, ölkələrimiz arasında imzalanmış və həyata keçirilməkdə olan ikitərəfli sənədlər bu münasibətlərin inkişafında mühüm rol oynayir. Eyni zamanda iki ölkənin parlamentləri arasında da dostluq və əməkdaşlıq münasibətləri mövcuddur”. Bu fikirlər Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bəyanatında yer alıb.

Bəyanatda həmçinin deyilir: “Biz Qarabağın işğaldan azad olunması üçün aparılan əks-hücum əməliyyatları dövründə İran İslam Respublikasının Ali rəhbəri cənab Əli Xameneyinin və İran rəsmilərinin Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, həmçinin İranın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı fikir və bəyanatlarını yüksək qiymətləndiririk.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 6 noyabr tarixli iclasında Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmovun İran və İranın Ali rəhbəri haqqında söylədiyi fikirləri qətiyyətlə pisləyir və bunların yalnız onun şəxsi fikirləri olduğunu vurğulayırıq.

Bəyan edirik ki, Azərbaycan Respublikasının yaxın səmimi münasibətlər saxladığı qonşu və dost ölkə və onun rəhbəri barəsində bu cür fikirlər tamamilə qəbuledilməzdir. Heç kəs xalqlarımız və dövlətlərimiz arasında dostluq münasibətlərinə xələl gətirə bilməz”.

# Həssas əhali qruplarına dövlət qayğısı daim artır

Azərbaycan beynəlxalq səviyyədə tanınmış öz ərazilərini Ermənistanın işğalından azad etməklə BMT-nin qətnamələrinin icrasını təmin edir.

“Hərbi əməliyyatlar Azərbaycanın öz ərazisində aparılır. Dövlət səviyyəsində terror siyasəti həyata keçirən Ermənistan tərəfindən Azərbaycanın yaşayış məntəqələrinə irimiqyaslı terror hücumlarının edilməsinə baxmayaraq, Azərbaycan Ordusu mülki əhalini heç zaman hədəfə almır”.

Bu fikirləri Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev BMT İnkişaf Proqramının (BMT İP) Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti ilə görüşündə vurğulayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir təcavüzkar Ermənistanın 30 ilə yaxındır BMT-nin 4 qətnaməsinə məhəl qoymadan Azərbaycan ərazilərini işğalda saxlamaqda davam etdiyini və sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təxribat törətdiyini deyib. O bildirib ki, həmin vaxtdan 3 dəfə humanitar atəşkəs elan olunmasına baxmayaraq, hər dəfə atəşkəs Ermənistan silahlı qüvvələri tərəfindən kobud şəkildə pozulmaqla, Azərbaycanın cəbhədən uzaq və heç bir hərbi obyekt yerləşməyən yaşayış məntəqələri, mülki əhalisi ağır artilleriya atəşlərinə, raket hücumlarına məruz qalıb. Ermənistanın bu müharibə cinayətləri nəticəsində Azərbaycan tərəfindən içərisində uşaqlar, qadınlar, yaşlılar da olmaqla, 92 mülki şəxs həlak olub, 404 nəfər yaralanıb, 504 mülki obyekt, 100 çoxmənzilli yaşayış binası, 3064 yaşayış evi yararsız vəziyyətə düşüb.

Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısından, sosial sahədə innovativ həllərin tətbiqinin genişlənməsinə xidmət edən son islahatlardan bəhs edən S.Babayev həssas əhali qruplarına dövlət qayğısının daim artmaqda olduğunu deyib. Nazir eyni zamanda pandemiya dövründə geniş miqyasda reallaşdırılan sosial dəstək tədbirlərindən bəhs edib. O, BMT İP ilə nazirliyin birgə icra etdiyi “Sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması” layihəsinin əlilliyi olan şəxslərin özünüməşğulluğuna önəmli dəstəyini diqqətə çatdırıb. Layihə üzrə 500 nəfər əlilliyi olan şəxsin kiçik biznesinin qurulması işləri aparıldığını deyib. Eləcə də nazirliyin BMT İP və BMT Əhali Fondu ilə birgə layihəsi olan “Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin olunması” layihəsi üzrə artıq aktivlərlə təmin olunma prosesinin aparıldığını deyib.

S.Babayev “Azərbaycanda innovasiyanın və məşğulluğun təşviqi” layihəsinin BMT İP ilə müsbət əməkdaşlıq təcrübəsinin daha bir nümunəsi olduğunu deyib. Layihənin gənclərin əmək bazarına çıxışının dəstəklənməsində ötən dövrdə əhəmiyyətli rol oynadığını deyib. Son illərdə nazirliklə BMT İP arasında səmərəli əməkdaşlığın mühüm fəaliyyət istiqamətləri üzrə genişlənməsinin təqdirəlayiq olduğunu qeyd edib.

A.Frakassetti BMT İP-in nazirliklə əməkdaşlığında həssas qrupların məşğulluq imkanlarının artırılmasına yönələn istiqamətlərin mühüm yer tutduğunu və bu sahələrə görülən birgə işlərin müsbət nəticələrini diqqətə çatdırıb. Birgə layihələrin pandemiya dövrünün məhdudiyyətlərinə baxmayaraq ardıcıl və məqsədyönlü şəkildə davam etməsi üçün göstərilən səylərdən məmnunluğunu bildirib.

Görüşdə qeyd edilən layihələrin icra vəziyyəti və görüləcək işlər, pensiya islahatı işinin nəzərdən keçirilməsi və təhlili, COVID-19 pandemiyasının Azərbaycanda məşğulluq və əmək bazarına təsirinin qiymətləndirilməsi məsələləri müzakirə olunub.

# Milli Məclisin İntizam komissiyası deputat Bəhruz Məhərrəmov barəsində töhmət intizam tədbiri haqqında qərar qəbul edib

Noyabrın 7-də Milli Məclisin İntizam komissiyasının iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda deputat Bəhruz Məhərrəmov barəsində intizam tədbirinin tətbiq edilməsi məsələsinə baxılıb.

Komissiyanın üzvləri qeyd edib ki, parlamentin 2020-ci il noyabrın 6-da keçirilən plenar iclasında deputat B.Məhərrəmovun İran və İranın Ali Rəhbərinin ünvanına səsləndirdiyi fikirlər Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və mehriban qonşuluq münasibətlərinin ruhuna ziddir. Deputat öz çıxışlarında məsuliyyət hissini rəhbər tutmalı, Azərbaycanın milli maraqlarını daim nəzərə almalıdır.

Komissiyanın üzvləri bildiriblər ki, deputat Bəhruz Məhərrəmovun səsləndirdiyi fikirlər heç bir halda parlamentin mövqeyini ifadə etmir. Onlar əmin olduqlarını vurğulayıblar ki, xalqlarımız və dövlətlərimiz arasında dostluq münasibətlərinə heç kəs xələl gətirə bilməz.

Müzakirələrin yekunu olaraq, İntizam komissiyası deputat Bəhruz Məhərrəmov barəsində töhmət intizam tədbirinin tətbiqi haqqında qərar qəbul edib.

# Ermənilər Azərbaycanın Tallindəki səfirliyinə qarşı təxribat törədiblər

Estoniya KİV-in verdiyi məlumata görə, ermənilər Azərbaycanın Tallindəki səfirliyinə qarşı təxribat törədiblər. Maskalı naməlum kişi Tallindəki İslam mərkəzinin, habelə bu ölkədəki Azərbaycan və Türkiyə səfirliklərinin qarşısına donuz başları qoyub. Hər üç hadisə barədə polisə məlumat verilib. AZƏRTAC xəbər verir ki, bu şəxs İslam mərkəzindəki müşahidə kameralarına düşüb. Hadisə şahidlərinin sözlərinə görə, ləhcəsinə əsasən eston olması güman edilən bu adam rus dilində deyib: “Bu, Məhəmmədə hədiyyədir”.

Bütün müsəlmanlar üçün təhqiramiz olan bu hərəkətin törədildiyi vaxtı nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, bu, ayrıca bir dini radikalın xuliqanlıq hərəkəti deyil, dini və milli ayrı-seçkiliyi qızışdırmaq məqsədilə əvvəlcədən planlaşdırılmış provokasiyadır.

Qeyri-rəsmi məlumata görə, həmin estoniyalı bu biabırçı hərəkəti “müsəlmanların xristianlara pis münasibət bəsləməsinə” və “Dağlıq Qarabağda Azərbaycanın Ermənistana qarşı hərəkətlərinə” cavab olaraq törədib.

Azərbaycanın Baltikyanı ölkələrlə yaxşı münasibətlərinə zərər vurmağa çalışan Ermənistanın ölkəmizə qarşı açıq-aşkar provokasiya cəhdləri göz qabağındadır. Ermənistanın Litva, Latviya və Estoniyadakı səfiri Tiqran Mkrtçyanın bu istiqamətdə “coşğun” fəaliyyətini nəzərə alsaq, bu biabırçı hərəkətdə erməni xüsusi xidmətlərinin dəstxəti aşkar hiss olunur. Əminliklə demək olar ki, bu provokasiyanı törətmiş estoniyalı erməni xüsusi xidmətləri tərəfindən cəlb edilib və onların agentidir. Buna görə yaxşı olardı ki, Estoniyanın səlahiyyətli orqanları səfir Mkrtçyanın pozucu fəaliyyətinə diqqəti artırsınlar.

# Ermənistan silahlı birləşmələrinin Bərdəni atəşə tutması nəticəsində bir nəfər həlak olub

Ermənistanın silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 7-də düşmən tərəfin silahlı birləşmələri tərəfindən Bərdə rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub.

Dünən saat 16 radələrində Bərdə rayonunun Yeni Əyricə kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 2004-cü il təvəllüdlü Rəhimov Şahmalı Ətraf oğlu həlak olub, yaşayış evinə isə ciddi ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

* * *

Ermənistanın silahlı qüvvələri elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 7-də düşmən tərəfin silahlı birləşmələri tərəfindən Tərtər rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub.

Dünən saat 17 radələrində Tərtər rayonu, Əski Para kəndində fərdi yaşayış evinin yaxınlığına mərmi düşməsi nəticəsində 1962-ci il təvəllüdlü Osmanov Nüsrət Qurban oğlu xəsarət alıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

# Suriyalı ermənilərin Ermənistan tərəfindən Zəngilana köçürülməsinə dair sənədlər aşkar olunub

İşğaldan azad edilmiş Zəngilan rayonu ərazisində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin istifadəsində olmuş binaya baxış zamanı bəzi sənədli materiallar aşkarlanıb.

AZƏRTAC xəbər verir ki, həmin materiallar təhlil olunarkən onların arasında Suriya vətəndaşlarına aid siyahı və pasportların surətlərinin olduğu müəyyən edilib.

Məlum olub ki, siyahıda adları qeyd olunmuş 60 suriyalı erməni (cəmi 19 ailə) işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən aparılmış qanunsuz məskunlaşma prosesində Zəngilan rayonu ərazisinə köçürülüb.

Həmçinin 02.05.1964-cü il təvəllüdlü, Suriya vətəndaşı, Suriyanın Haseke bölgəsinin sakini Baazo Hraj Sepob (pasport: 015-11-L021693), 12.11.1969-cu il təvəllüdlü, Suriya vətəndaşı, Suriyanın Hələb şəhərinin sakini İskandarian Hartion Avadis (pasport: 004-11-L128622) və 01.01.1962-ci ildə Suriyada anadan olmuş Ermənistan vətəndaşı Kirakos Babkin (pasport: AM 0709227) adına verilmiş pasportların kserosurətləri də aşkarlanıb.

Qeyd olunan istiqamətdə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Ermənistan-Azərbaycan münaqişəsində Pakistan ölkəmizin ədalətli mövqeyini tam dəstəkləyir

Azərbaycanla Pakistanın iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb.



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistanın ölkəmizdəki səfiri Bilal Haye ilə görüşüb. Nazir Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə səfirə uğurlar arzulayıb. Vurğulayıb ki, ortaq dini və mədəni dəyərlərə əsaslanan Azərbaycan-Pakistan əlaqələri strateji tərəfdaşlıq səviyyəsindədir. Dost və qardaş Pakistan Azərbaycanın dövlət müstəqilliyini tanıyan, Bakıda səfirliyi açılan ilk ölkələrdəndir.

Nazir təcavüzkar Ermənistanın silahlı birləşmələrinin sentyabrın 27-dən başlayan növbəti hərbi təxribatları, ağır artilleriya və raket qurğuları ilə mülki əhaliyə qarşı törətdiyi insanlıq əleyhinə cinayətlər barədə məlumat verib, Ermənistanın işğalçılıq siyasəti ilə bağlı Pakistanın birmənalı və qəti mövqeyinin, hər zaman Azərbaycana dəstək olmasının xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

M.Cabbarov son günlərdə Pakistanda baş verən və insan tələfatı ilə nəticələnən terror aktlarının qəti şəkildə pislənildiyini vurğulayıb və səfirə dərin hüznlə başsağlığı verib. Ölkəmizdə fəaliyyətindən məmnunluğunu ifadə edən səfir Bilal Haye Pakistan-Azərbaycan əməkdaşlığının inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib. Səfir bir daha vurğulayıb ki, Ermənistan-Azərbaycan münaqişəsində Pakistan ölkəmizin ədalətli mövqeyini tam dəstəkləyir və daim Azərbaycanın yanındadır.

Tərəflər iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, müxtəlif sahələrdə qarşılıqlı təcrübə mübadiləsi və sair məsələlər barədə müzakirələr aparıb.

# Azərbaycanın Xarkovdakı Fəxri konsulluğunun binasına hücumla bağlı cinayət işi başlanılıb

Noyabrın 6-dan 7-nə keçən gecə saat 2:30 radələrində Azərbaycan Respublikasının Ukraynanın Xarkov şəhərindəki Fəxri konsulluğunun binası odlu silahdan atəşə tutulub. Konsulluğun binasının qapısına və pəncərələrinə 6 atəş açılıb. Gecə saatlarında binada heç kəs olmadığı üçün konsulluğun əməkdaşları arasında zərər çəkən olmayıb. Fəxri konsulluğun kameraları hücum edən şəxsin 2 nəfər olduğunu qeydə alıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, konsulluğun binasına hücumla bağlı Xarkov şəhər polisi tərəfindən cinayət işi başlanılıb.

Qeyd olunub ki, son zamanlar Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə qarşı radikal erməni qüvvələri tərəfindən davamlı təhdidlərin edildiyini nəzərə alaraq, Xarkovdakı Fəxri konsulluğumuza edilən bu hücum məhz bu təhdidlər kontekstində nəzərdən keçirilməlidir.

Radikal erməni qüvvələrinin Azərbaycanın xarici ölkələrdəki diplomatlarına, eləcə də yerli azərbaycanlı icmasının üzvlərinə qarşı təhdid xarakterli və həyati təhlükə doğuran hücumlarını qətiyyətlə pisləyirik. Xarici ölkələrdəki Azərbaycan vətəndaşlarına və yerli azərbaycanlı icmasının üzvlərinə qarşı edilən cinayət xarakterli bu kimi əməllərə görə cavabdeh şəxslərin qanun qarşısında cavab verməsi üçün ölkəmizin müvafiq qurumları əcnəbi ölkələrdəki yerli hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyət və əməkdaşlıq həyata keçirəcək.

# Ermənistanın vasitəçilərin səylərinə hörmətsizlik nümayiş etdirərək dinc insanları atəşə tutmasını şiddətlə qınayırıq

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi noyabrın 7-də Azərbaycanın cəbhə zonasından kənarda yerləşən Bərdə rayonunun kəndlərinin Ermənistan silahlı qüvvələri tərəfindən intensiv şəkildə raket və ağır artilleriya atəşinə tutulması ilə bağlı məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda deyilir: "Noyabrın 7-də Azərbaycanın cəbhə zonasından kənarda yerləşən Bərdə rayonunun kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv şəkildə raket və ağır artilleriya atəşinə tutulub.

Mövcud humanitar atəşkəsi kobud şəkildə pozan Ermənistan dinc azərbaycanlı əhalini hədəfə almaqla beynəlxalq humanitar hüququ və öz öhdəliklərini heçə sayaraq cinayət əməllərini davam etdirir.

Dünən Bərdə rayonunun Yeni Əyricə kəndində fərdi yaşayış evinə mərmi düşməsi nəticəsində 1 mülki şəxs - 16 yaşlı yeniyetmə həlak olub. Beləliklə, sentyabrın 27-dən etibarən Ermənistanın Azərbaycana qarşı başlatdığı yeni hərbi təxribatları nəticəsində həlak olan azərbaycanlı mülki şəxslərin sayı 93-ə çatıb.

Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq və beynəlxalq vasitəçilərin davamlı səylərinə hörmətsizlik nümayiş etdirərək təcavüz siyasətini davam etdirməsini və dinc insanları atəşə tutmasını şiddətlə qınayırıq. Ermənistandan beynəlxalq ictimaiyyətin, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, silahlı qüvvələrinin Azərbaycanın hələ də işğal altında olan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmasını tələb edirik. Bölgədə dayanıqlı sülh təmin olunması üçün vacib şərt işğal faktının aradan qaldırılması və məcburi köçkünlərin öz evlərinə geri qayıtmasından ibarətdir".

# Mənəviyyatdan və insanlıqdan uzaq olan düşmən

*Əvvəli 1-ci səh.*

1918-ci ilin mart soyqırımı, 1992-ci ilin Xocalı soyqırımı, əsir götürdükləri soydaşlarımızın başına gətirdikləri müsibətlər heç kəsin yadından çıxmayıb.

Törətdikləri bu vəhşiliklərdə isə yalnız bir məqsəd var. Azərbaycan xalqının iradə və əzmini qıraraq, onu qorxudaraq tarixi torpaqlarımızı zəbt etmək. Lakin niyyətlərinə nail ola bilməyiblər. Çünki xalqımızın iradəsini qırmaq mümkün deyil.

## Erməni terroru davam edir

Elə sentyabrın 27-dən etibarən mülki əhalimizə qarşı həyata keçirdikləri növbəti təxribatlar da bu mənfur ideologiyanın davamıdır.

Qəhrəman ordumuzun şücaətindən qorxaraq gizlənməyə siçan yuvası gəzən bu namərdlər gecənin qaranlığında güclərini müdafiəsiz insanlara silah tuşlamaqla sınayırlar. Düşünürlər ki, cəbhə xəttindən kilometrlərlə uzaqda olan şəhərlərimizi, kəndlərimizi qadağan olunmuş silahlarla artilleriya atəşinə tutmaqla döyüş meydanında qalib əsgərlərimizin əzmini sındıra biləcəklər, mülki əhalimizi həyəcanlandırıb arxa cəbhəmizdə çaxnaşma salacaqlar.

Amma tarix və zaman artıq ermənilərin indiyə qədər bu qaniçən plan üzrə törətdikləri vəhşiliklərə dözmək iqtidarında deyil. İndi haqqın yerini tapacağı, ədalətin bərqərar olacağı hesab günüdür...

Yaxın Lələtəpə qələbəsində, Günnütdə, bu ilin iyul ayında Tovuzda rəşadətli ordumuz tərəfindən işğalçılar hərb meydanında layiqli cavab alaraq yerlərinə otuzduruldular.

Sentyabrın 27-dən etibarən hərbi təxribatlara başlayan Ermənistanın faşist rejimi "ənənəsinə" sadiq qalaraq yenə də çirkin simasını göstərir, şəhər və kəndlərimizi, dinc əhalini hədəf almaqdan çəkinmir. Azərbaycan Ordusunun düşmənin yalnız hərbi obyektlərini nişan almasına baxmayaraq, Ermənistanın silahlı qüvvələrinin hədəfi mülki əhalimizdir.

Şanlı ordumuzla döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən düşmən Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, fərdi və çoxmənzilli yaşayış binalarını, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutaraq dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlətin əmlakına ciddi ziyan yetirir. Onlar həm də dinc əhaliyə qarşı bu qəddar



hücumlarında qadağan olunmuş silahlardan istifadə edirlər.

Ermənistan bu əməlləri ilə sivil dəyərlərdən kənar, mülki insanlara və azyaşlı uşaqlara qarşı xain hücumlar törədən terrorçu ölkə olduğunu növbəti dəfə sübut edir, faşizm mahiyyətini bir daha göz önünə sərir. Gəncədə törətdikləri soyqırımı, Bərdədə, Tərtərdə mülki əhalini hədəf alaraq terror törətmələri, bütöv ailələri Yer üzündən silmələri, körpə uşaqların, qocaların öldürülməsi ermənilərin nə qədər vandal millət olmasından xəbər verir.

## 92 nəfər mülki şəxs həlak olub, 404 nəfər yaralanıb

Azərbaycan Respublikası Baş Prokurorluğunun sentyabrın 27-dən hazırkı vaxta qədər Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərin statistikasına nəzər saldıqda da bir daha əmin oluruq ki, faşizm xislətli düşmən murdar əməllərindən əl çəkmir. Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 27-dən hazırkı vaxtadək Ermənistan ordusunun yaşayış məntəqələrini atəşə tutması nəticəsində 92 mülki şəxs həlak olub, 404 nəfər yaralanıb.

Bundan başqa, 502 mülki obyekt, 100 çoxmənzilli yaşayış binası və 2971 yaşayış evi yararsız vəziyyətə düşüb.

Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməyən Ermənistanın cinayətkar əməllərinə qarşı cavab tədbirləri görməyə məcburdur. Ölkəmizin beynəlxalq hüquq çərçivəsində, öz vətəndaşlarının təhlükəsizliyini qorumağa haqqı və hüququ var, çünki təcavüzkar Ermənistanı susdurmağın başqa yolu yoxdur.

Bu gün Azərbaycan güc yolu ilə Ermənistanı işğal olunmuş torpaqlarımızdan qovur. Ordumuzun zəfəri ilə həm ərazilərimiz azad edilir, həm də erməni qatillərinin qurbanına çevrilən günahsız vətəndaşlarımızın qisası alınır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Müdafiə Nazirliyi xəbər verir

# *Anar EYVAZOV:* Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub

"Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində və Ermənistan ərazisindən Qubadlıda yerləşən bölmələrimizin mövqelərini, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonları daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinin susdurulması üçün ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində adekvat tədbirlər görülür".




AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 7-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmənin Ağdərə istiqamətində müdafiə olunan 5-ci dağatıcı alayının xeyli sayda şəxsi heyəti, avtomobil texnikası və minaatanları ordumuzun atəş zərbələri ilə məhv edilib. Bu istiqamətdə atış mövqelərinə çıxarılan D-30 haubitsasının şəxsi heyəti bölmələrimizin dəqiq atəşi ilə zərərsizləşdirilib.

Ordumuzun həyata keçirdiyi digər əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının bir taborunun şəxsi heyəti arasında itkin düşənlər var, artilleriya divizionunda isə bir batareyanın topları sıradan çıxarılıb.

Döyüşlər başlayandan indiyədək canlı qüvvə baxımından ağır itkilərə məruz qalan, buna görə də bir müddət əvvəl yerli sakinlər və Ermənistandan cəlb edilən könüllülərlə gücləndirilmiş düşmənin 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyəti bölmələrimiz tərəfindən mühasirəyə alınaraq darmadağın olunub. Qalan xüsusi təyinatlılar tutduqları mövqeləri tərk edərək geri çəkilməyə məcbur ediliblər. Döyüşlərə cəlb olunan Ermənistan silahlı qüvvələrinin 178-ci əlahiddə kəşfiyyat taborunda şəxsi heyətin bir hissəsi bölmələrimiz tərəfindən məhv edilib.

Mətbuat katibi qeyd edib ki, əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən bir qədər də geriyə çəkilməyə məcbur edilib.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavəndin ümumilikdə 16 kəndi ordumuz tərəfindən işğaldan azad olunub.

"Zəngilanda və işğaldan azad edilmiş digər ərazilərə baxış zamanı əldə olunan sənədlər və digər kəşfiyyat materialları təsdiqləyir ki, Azərbaycan Ordusu təkcə Ermənistan silahlı qüvvələri ilə deyil, həmçinin muzdlu əcnəbilərdən ibarət hərbi qruplaşmalarla da mübarizə aparır. Düşmən bilməlidir ki, nə əcnəbi döyüşçülər, nə də ki hansısa könüllü dəstələr Azərbaycan əsgərini dayandıra bilməz. Sağ qalmaq üçün onların bir yolu var: vaxt itirmədən silahı yerə qoyaraq döyüş meydanını tərk etmək.

Hazırda əməliyyat şəraiti ordumuzun nəzarətindədir. Cəbhənin bütün istiqamətlərində döyüşlər davam edir. Qələbə bizimlədir", - deyə mətbuat katibi vurğulayıb.

## Düşmən yaşayış məntəqələrimizi yenidən atəşə tutub

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Şıxarx qəsəbəsini, Qazyan və Hüsənli kəndlərini, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini artilleriya atəşinə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuz tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə tədbirlər görülür.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Ağdam rayonunun Çullu və Çıraqlı kəndləri artilleriya atəşinə tutulur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə tədbirlər görülür.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələri Bərdə rayonunun Əyricə kəndini atəşə tutub. Nəticədə bir nəfər kənd sakini həlak olub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Azərbaycan Ordusu Şuşa şəhərini atəşə tutmayıb

Şuşa şəhərinin Azərbaycan Ordusu tərəfindən fasilələrlə atəşə tutulması ilə bağlı Ermənistan tərəfinin yaydığı xəbər tamamilə həqiqətə uyğun deyil.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, Azərbaycan Ordusu Şuşa şəhərini atəşə tutmayıb.

## Cəbhənin Ağdam istiqamətində düşmən itki verib

Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi ziyan vurulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu istiqamətdəki 37-ci atıcı diviziyanın 4-cü motoatıcı alayının müdafiə sahəsindəki minaatan batareyasına endirilən artilleriya zərbələri nəticəsində düşmən itki verərək mövqelərini tərk edib.

Alayın gücləndirilməsi məqsədilə buraya gətirilən və içərisində könüllülər olan avtobus qəzaya uğrayıb. Nəticədə 30 nəfərədək ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin xəsarət aldığı məlum olub.

62-ci artilleriya briqadasının 4-cü reaktiv divizionunun atəşə tutulması nəticəsində bir BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb, şəxsi heyət arasında ölən və yaralanan var.

## Tərtərdə aşkarlanan partlamamış raket və bombacıq zərərsizləşdirilib



Tərtər rayonunun Səhləbad kəndində Ermənistan silahlı qüvvələri tərəfindən atılmış bir ədəd zenit raketi və 9N235 bombacığı aşkar edilib.

ANAMA-nın əməkdaşı Şahin Allahverdiyev AZƏRTAC-a bildirib ki, 206 millimetrlik 9N33 raketi "OSA" zenit raket kompleksindən, 9N235 bombacığı isə 9M525 raket sistemindən atılıb. Partlamamış raket və bombacıq ANAMA-nın əməkdaşları tərəfindən partlatma yolu ilə zərərsizləşdirilib.



## Ermənistan ərazisinin atəşə tutulması xəbəri düşmənin növbəti təxribatıdır

Azərbaycanın Qubadlı rayonu ərazisindən guya Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndinin atəşə tutulması barədə Ermənistan tərəfinin yaydığı xəbər təxribat xarakterli dezinformasiyadır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutub.

Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görür.

Nazirlik bir daha bildirir ki, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur.

# İşğaldan azad edilmiş şəhər və kəndlərimiz

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 7-dək 4 şəhər, 3 qəsəbə və 215 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 79 kəndi, Füzuli şəhəri və rayonun 36 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri və 47 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 22 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 26 kəndi, Xocalının 2 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər azad olunub. AZƏRTAC düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısını təqdim edir:

**27 sentyabr**
- **Füzuli** rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri
- **Cəbrayıl** rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri
- **Ağdərə** və **Murovdağ** istiqamətlərində yüksəkliklər

**3 oktyabr**
- **Tərtər** rayonunun Suqovuşan və Talış kəndləri
- **Cəbrayıl** rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri
- **Füzuli** rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr**
- **Cəbrayıl** şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr**
- **Cəbrayıl** rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr**
- **Xocavənd** rayonunun Hadrut qəsəbəsi və Sur kəndi
- **Cəbrayıl** rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri
- **Füzuli** rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri
- **Tərtər** rayonunun Çaylı kəndi

**14 oktyabr**
- **Füzuli** rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri
- **Xocavənd** rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr**
- Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri
- **Füzuli** rayonunun Arış kəndi
- **Cəbrayıl** rayonunun Doşulu kəndi

**16 oktyabr**
- **Xocavənd** rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr**
- **Füzuli** rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr**
- **Xudafərin** körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr**
- **Cəbrayıl** rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr**
- **Zəngilan** rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri
- **Füzuli** rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri
- **Cəbrayıl** rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri
- **Xocavənd** rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**
- **Zəngilan** rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri
- **Cəbrayıl** rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri
- **Füzuli** rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**
- **Zəngilan** rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dələkli kəndləri və Ağbənd qəsəbəsi
- **Cəbrayıl** rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri
- **Füzuli** rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**
- **Xocavənd** rayonunun Dolanlar və Bünyadlı kəndləri
- **Cəbrayıl** rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri
- **Zəngilan** rayonunun Vənədli və Mirzəhəsənli kəndləri
- **Qubadlı** rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr**
- **Zəngilan** rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri
- **Cəbrayıl** rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri
- **Qubadlı** rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr**
- **Zəngilan** rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri
- **Füzuli** rayonunun Mandılı kəndi
- **Cəbrayıl** rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri
- **Qubadlı** rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr**
- **Cəbrayıl** rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri
- **Zəngilan** rayonunun Aladin, Vejnəli kəndləri
- **Qubadlı** rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabr**
- **Cəbrayıl** rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri
- **Zəngilan** rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri
- **Qubadlı** rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabr**
- **Cəbrayıl** rayonunun Mirək, Kavdar kəndləri
- **Zəngilan** rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri
- **Qubadlı** rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

**7 noyabr**
- **Füzuli** rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri
- **Cəbrayıl** rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri
- Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri
- **Zəngilan** rayonunun Beşdəli kəndi
- **Xocavənd** rayonunun Ataqut, Tsakuri kəndləri
- **Xocalının** Qarabulaq, Moşxmaat kəndləri

# 9 Noyabr Dövlət Bayrağı Günüdür

## Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır

*Əvvəli 1-ci səh.*



### Heydər Əliyev bayrağımızı Naxçıvanda ucaltdı

Müasir müstəqillik və dövlətçilik tariximizdə üçrəngli Azərbaycan bayrağının yenidən ucaldılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, müstəqilliyimizin elan olunmasından bir il əvvəl, hələ sovet hakimiyyətinin mövcud olduğu dövrdə Ulu Öndər Heydər Əliyev böyük cəsarətlə Naxçıvanda üçrəngli Azərbaycan bayrağını ucaltmışdı.

Məlum olduğu kimi, 30 il əvvəl - 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıtması və siyasi fəaliyyətini davam etdirməsi respublikamızda milli dirçəliş hərəkatını yeni mərhələyə yüksəltdi. Naxçıvandan başlanan bu proses qısa vaxtda ölkəmizin ictimai-siyasi mühitində böyük hərəkata çevrilməklə, Azərbaycanın dövlət müstəqilliyinin bərpası istiqamətində mühüm tarixi hadisələrin baş verməsinə səbəb oldu. Bu baxımdan Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Ali Məclisinin 1990-cı il noyabrın 17-də öz işinə başlayan sessiyası Azərbaycanın müstəqilliyinə aparan yolda tariximizin ən şərəfli səhifələrindən biridir. Məhz bu sessiya milli dövlətçiliyimizin dirçəlişi, müstəqilliyimizin bərpası prosesi istiqamətində olduqca vacib tarixi qərarların qəbul edilməsi ilə tariximizə düşüb.

Belə qərarlardan birində Ulu Öndər Heydər Əliyevin təklifi və təşəbbüsü ilə 1990-cı ilin noyabrında üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı elan olundu. Həmin qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxılması və respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edildi.

Naxçıvanda Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması olduqca mühüm siyasi hadisə idi. *"O vaxt hələ Sovet İttifaqının dağılmasına bir ildən çox vaxt var idi. Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir*", - deyə Ümummilli Lider bu barədə danışarkən bildirib.

### Dövlət rəmzlərinə diqqətin və ehtiramın təcəssümü

Azərbaycan xalqının bayraq sevgisi sonsuzdur. Hər bir vətəndaşımız bayrağımıza ehtiram göstərməyi özünə müqəddəs borc sayır. Bayrağımız ölkəmizin hər yerində vüqarla dalğalanır. Üzvü olduğumuz beynəlxalq təşkilatların binalarının qarşısında dalğalanan bayrağımız müstəqil dövlətimizin varlığını dünyaya çatdırır. Bayrağımız mühüm tədbirlər, mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda qaldırılaraq müstəqilliyimizi və milli birliyimizi təcəssüm etdirir. İdmançılarımız beynəlxalq yarışların qalibi olanda bayrağımızı başlarının üzərinə qaldırıb, himnimizi səsləndirirlər.

Xüsusilə qeyd etməliyik ki, Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın dövlət atributlarına, o cümlədən üçrəngli bayrağımıza göstərdiyi böyük ehtiram, bu məqsədlə həyata keçirilən tədbirlər ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edən böyük amillərdir. Dövlət Bayrağı Gününün təsis edilməsi bu istiqamətdə Azərbaycan Prezidentinin verdiyi ən mühüm tarixi qərarlardan biridir.

Bakı şəhərində, Xəzər dənizinin sahilində Dövlət Bayrağı Meydanının yaradılması da İlham Əliyevin bir daha dövlətimizin rəmzlərinə diqqətinin və ehtiramının ən gözəl nümunəsi kimi tarixə düşdü. Dövlət Bayrağı Meydanının yaradılması xalqımızın milli həmrəyliyinə, vahid məfkurə ətrafında daha da sıx birləşməsinə xidmət edən mühüm addımdır. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, Dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Bu dövlət rəmzləri Bayraq Meydanının görkəminin möhtəşəmliyini daha da artırmış, onun görünüşünə əlavə çalarlar qatmışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

### İlham Əliyev bayrağımızı Şuşada dalğalandıracaq

Bu gün hər bir azərbaycanlının arzusu torpaqlarımızın işğaldan azad edilməsidir. Artıq zaman yetişib və qədim yurd yerimiz olan Dağlıq Qarabağ azadlığına qovuşmaqdadır. Hər gün cəbhədən Azərbaycan əsgərinin qələbə dolu müjdələri gəlir. Ermənistanın illərdən bəri möhkəmləndirdiyi, keçilməz hesab etdiyi istehkamlar, ön xətt mövqeləri çoxdan darmadağın edilib.

Artıq Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları işğaldan azad edilib. Xocavənd və Tərtər rayonlarının kəndləri də daxil olmaqla, ümumilikdə bu rayonlar üzrə 200-dən artıq yaşayış məntəqəsi azad olunub. İranla dövlət sərhədi boyu nəzarət təmin edilib. Bəli, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlıda artıq Azərbaycan bayrağı dalğalanır. O cümlədən qədim tariximizin və zəngin dövlətçiliyimizin tərənnümçüsü, milli kimliyimizin təsdiqi olan Xudafərin körpüsündə bayrağımız sancılıb. Azərbaycan əsgərlərinin azad edilmiş ərazilərimizdə ucaldılmış bayrağımızın fonunda Ali Baş Komandan İlham Əliyevə məruzə etmələri hər bir azərbaycanlını fərəhləndirir, riqqətə gətirir.

Azərbaycan Ordusu müzəffər yürüşünü hər gün daha inamla və zəfərlə davam etdirir. İşğaldan azad edilmiş yaşayış məntəqələrinin sırasına hər gün yeni kəndlər əlavə olunur. Qorxmaz əsgərlərimizin qarşısında duruş gətirə bilməyən düşmən xilas üçün kimlərəsə yalvarsa da, heç nə Azərbaycanı öz yolundan saxlaya bilməyəcək. Qarabağın tam azad edilməsinə az qalıb. Şanlı ordumuz ən qısa vaxtda öz vəzifəsini bütünlüklə yerinə yetirəcək və Azərbaycanın ərazi bütövlüyünü təmin edən Ali Baş Komandan İlham Əliyev bayrağımızı Şuşada dalğalandıracaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Qələbə rəmzi



**Milli ləyaqət simvolu olan üçrəngli Azərbaycan bayrağı bu gün müzəffər ordumuzun rəşadəti sayəsində ölkəmizin işğaldan azad edilən hər bir kəndində, hər bir şəhərində ucadan uca zirvələrdə əzəmətlə dalğalanır. Bu, Azərbaycanın təəssübünü çəkən insanlar üçün, habelə Yer üzündə yaşayan bütün azərbaycanlılar, xüsusilə işğaldan azad edilən ərazilərin sakinləri üçün nə qədər qürurvericidir.**

Azərbaycanın dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprelinədək dövlət statusuna malik olmuşdur. 1920-ci il bolşevik istilasından sonra milli dövlətçiliyimiz kimi, bayrağımız da repressiyaya məruz qalmışdır. Lakin müqəddəs istiqlal rəmzi - üçrəngli milli dövlət bayrağımız 70 ildən sonra 1990-cı il noyabrın 17-də qədim Azərbaycan diyarı Naxçıvanda dünya şöhrətli siyasətçi, təcrübəli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dövlət bayrağı kimi qəbul edilərək yüksəklərə qaldırılmışdı. Öndə Ümummilli Lider olmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti və tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etmişdir. Bundan sonra bu müqəddəs istiqlal rəmzimiz bütün Azərbaycan üzərində görünməyə başlamışdır. Müstəqilliyimizin müqəddəs rəmzi olan Azərbaycan bayrağı bu gün nəinki respublikamızda, dünyanın bir çox dövlətlərinin səmasında ölkəmizin səfirlikləri üzərində dalğalanmaqdadır.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi yolu ilə Prezident seçilən Heydər Əliyev andiçmə mərasimində dövlət bayrağına sədaqətini dizini yerə qoyaraq bayrağımızı öpüb gözünün üstünə qoymaqla ifadə etdi: "Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaxşı yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr mənim Prezidentlik fəaliyyətimdə əsas istiqamətlər olacaqdır".

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Muzeyinin yaradılması barədə, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncamlarına əsasən noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur. Vətən uğrunda ölməyi, onun müqəddəsliyinin qorunmasını şərəf işi hesab edən Prezident İlham Əliyev üçün dövlət bayrağı milli azadlığa, milli oyanışa, milli ruhun canlandırılmasına bələdçi və çağırışdır.

Bu gün bayrağımız dünyanın 180-dən çox dövlətinin bayraqları ilə bir sırada dalğalanmaqdadır. Respublikamızda, eləcə də Azərbaycandan çox-çox uzaqlarda yaşayan vətənpərvər insanlar, diaspora təşkilatları üçrəngli bayrağımızı başları üzərinə qaldırmaqla Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. İctimai yerlərdə üçrəngli bayrağımızı geyimlərində, təhsil aldıqları ali məktəblərdə, idarə etdikləri avtomobillərdə əks etdirməklə Vətən müharibəsində müzəffər ordumuzun yanında olduqlarını təsdiqləyirlər.

Dövlət başçısı İlham Əliyevin Azərbaycan bayrağı altında milli maraqlara əsaslanmaqla həyata keçirdiyi uğurlu diplomatiya və hərbi quruculuq siyasəti cəbhədə yeni-yeni zəfərlərə yol açır. Cəbhə bölgəsində düşmənlə ölüm-qalım savaşında erməni terrorçularına ağır zərbələr endirən tankların, topların və digər hərbi döyüş maşınlarının üzərindəki üçrəngli bayrağımız sevincimizin ilk şahidi və qələbə müjdəçisi sayılır. Qeyd edək ki, Azərbaycan Ordusu 30 ilə yaxın Ermənistanın terrorçu silahlı birləşmələrinin tapdağı altında olan Füzuli rayonunu 27 ildən sonra işğaldan azad edərkən bayraq asmağa salamat bir bina belə tapa bilməmişdi. Sovet dönəmində böyük bir şəhər hesab edilən Füzuli işğal altında olduğu illər ərzində ermənilər tərəfindən yerlə-yeksan edilmişdi. Milli Ordunun əsgər və zabitləri eyni mənzərə ilə Zəngilanda da üzləşmişdilər. Şəhərdə yeganə dağıdılmamış bina hərbi qulluqçuların uşaqları üçün nəzərdə tutulmuş məktəb binası olmuşdu. Buna baxmayaraq, Azərbaycan bayrağı qalibiyyət rəmzi kimi Füzulidə, Zəngilanda, Xocavənddə, Ağdərədə, Hadrutda, Xudafərin körpüsünün üstündə, respublikamızın İran İslam Respublikası ilə həmsərhəd zastavalarında qürurla dalğalandırıldı. Düşmənə göz dağına çevrilən Lələtəpədə bayrağımızın qədəmləri sayalı olmuşdur. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qoşunlarımızın uğurlu əməliyyatları nəticəsində Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır. Silahdan da kəsərli üçrəngli Azərbaycan bayrağı indi Füzulinin, Zəngilanın, Qubadlının, Cəbrayılın, Xocavəndin, Xankəndinin, Şuşanın, Ağdərənin və digər işğaldan azad edilmiş şəhər və rayonlarımızın, kənd və qəsəbələrimizin ilk "sakinlərinə" çevrilibdir. Üçrəngli bayrağımızı cəbhə bölgəsində əlində silah hesab edərək onu canı-qanı bahasına qoruyan igidlərimiz var. Zəfər güllərini üstündə göyərdən, tarixdən qədim, zamandan qoca adlandırılan bayraq yalnız onun uğrunda ölən şəhidlərin ruhu qarşısında "baş əyir", qəhrəmanlara özü kimi əbədilik qazandırır. Bu əbədiliyin dərin qatlarından şəhid səsləri eşidilir: "Qarabağ Azərbaycandır! Qələbə bizimlədir!"

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Azadlığımızın tərənnümçüsü

**10 ildir Azərbaycan noyabr ayının 9-nu Dövlət Bayrağı Günü kimi qeyd edir. Dövlətçilik tariximizə ehtiramın nümunəsi kimi düşən bu təqvim həm də xalqımızın milli rəmzlərimizə olan sevgisinin göstəricisidir.**

**Milli Məclisin deputatları mövzu ilə bağlı fikirlərini əməkdaşımızla bölüşdülər.**





### Ali Baş Komandan bayrağımızı ən ali məqama yüksəldir

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı,*
*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- Bu günün mübarək, məğrur bayrağım! Ənginliyi andıran mavini, atəş dilimi tək alışıb yanan al rəngini, ümidin simvolu zümrüdünü indi işğaldan azad olunan Qarabağda, başı buludlarla yarışan zirvələrində, Xudafərində, Suqovuşanda dalğalanan görmək necə də fəxarətdir. Ay-ulduzun meydan oxuyur, hər gün qələbə müjdələrinin gəldiyi rayonlarımızda "Qarabağ Azərbaycandır!" hayqırdıqca, düşmən əzəmətin qarşısında əzilir, diz çökür önündə!.. Səmada qartaltək süzəndə, fırtınalı dəniz kimi dalğalananda düşmənin bağrına ox kimi sancılırsan! Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, şücaəti sayəsində haqqa doğru inamla addımlayaraq, şah zirvənə ucalırsan, ədalət ənginliklərində bərqərar olursan...

Qürurverici həqiqətdir ki, hələ dünyanın bir çox ölkələrində dövlət, millət anlayışının formalaşmadığı bir vaxtda Azərbaycanın ta qədimlərdən dövlətləri də olub, onların bayraqları da. Minillərin o tayından adlayıb gələn bayraqlarımız tarix boyu çox sınaqlara tuş gəlib, cəng meydanlarında döyüşüb, nizələrə taxılıb, amma heç zaman düşmənə baş əyməyib. Ulu babalarımız həmişə bayrağa sancaq deyiblər, yəni qəhrəmanlarımızın döyüşlərdə öz bayraqlarını sancdıqları yer onlar üçün müqəddəs məkana, ana yurda çevrilib.

Müxtəlif dövrlərdə Azərbaycanın Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi güclü dövlətləri tariximizdə silinməz izlər qoyub və bu dövlətlərin hər birinin müstəqillik rəmzi olan bayraqları ucalarda dalğalanıb. Bugünkü üçrəngli bayrağımız isə Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. 102 il əvvəl - 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Azərbaycanın yeni üçrəngli - mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul edib. Özünəməxsus milli varlıq fəlsəfəsi olan bayrağımızdakı mavi rəng milli mənsubiyyətimizi, qırmızı rəng müasirliyi, yaşıl rəng isə xalqın mənəvi dünyasını ifadə edir.

Dövlətin ən müqəddəs rəmzi və əsas atributlarından olan bayraq onun mövcudiyyətinin təsdiqidir. Buna görə bayraq bütün dünyada qürur mənbəyi hesab olunur. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev 1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra başlatdığı istiqlal mücadiləsində atdığı ilk addımlardan biri üçrəngli bayrağımızın yenidən ucaldılması olmuşdu. 1920-ci ildə üçrəngli bayrağımız sovet hakimiyyətinin bayrağı ilə əvəz olunsa da, Azərbaycan xalqının azadlıq hisslərini məhv edə bilmədilər. Xalqımız 70 il azadlıq sevgisini qəlbində gəzdirdiyi kimi, özünün milli bayrağının olduğunu da heç vaxt unutmadı.

Ürəklərdə yaşayan üçrəngli bayrağımız 70 il sonra - 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının iclasında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Bu, o dövr idi ki, hələ sovet hakimiyyəti mövcud idi. Lakin Heydər Əliyevin cəsarəti, hünəri, müstəqil dövlətçilik idealları qarşısında heç bir ideoloji baryer dayana bilməzdi.

Bu hadisə Azərbaycanda başlanmış milli istiqlal hərəkatının ən şərəfli səhifəsi oldu, onun daha da genişlənməsinə yol açdı. Ulu Öndərimiz bayrağımızla bağlı tarixi ədalətin bərpa olunması istiqamətində fəaliyyətini bununla kifayətləndirmədi. Belə ki, Naxçıvan Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. Bundan 3 ay sonra, 1991-ci ilin fevral ayında Azərbaycan Ali Soveti tərəfindən üçrəngli bayrağımız dövlət bayrağı kimi təsdiq olundu.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bayrağımız ümumxalq referendumu ilə qəbul edilən Konstitusiyada da öz əksini tapdı.

Ötən 17 ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurlu idarəçiliyi Azərbaycanın inkişafında yeni mərhələ açdı. Təsadüfi deyil ki, bu gün respublikamız bütün sahələrdə Cənubi Qafqazın lider dövlətidir, enerji təhlükəsizliyi məsələsində dünyada söz sahibidir.

Bu günlərdə Azərbaycan Ordusunun Dağlıq Qarabağda yazdığı şanlı tarix də İlham Əliyevin inkişaf siyasətinin təsdiqidir. Cənab Prezidentin uğurlu siyasəti artıq elə bir dövrü yetişdirdi ki, indi Azərbaycan öz hərbi imkanları ilə torpaqlarımızı işğaldan azad edə bilər. Məlumdur ki, Azərbaycan indiyə kimi torpaqlarının azad edilməsi məsələsində ikili standartlarla üzləşib. ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar 28 ildə məhz ikili standartlar səbəbindən nəticəsiz qalıb. Bu illər ərzində heç kim işğalçını öz adı ilə çağırmayıb, Ermənistana təzyiq etmək istəməyib. Və bu illər ərzində çalışıblar ki, Azərbaycan xalqı işğalla barışsın.

Xalqımız 70 il müstəqillik arzusunu qəlbində yaşatdığı kimi, torpaqlarının işğal altında olması ilə də heç vaxt barışmadı. Sentyabrın 27-dən başlanan ikinci Qarabağ müharibəsində hər birimizin gördüyümüz və fərəhləndiyimiz ən böyük mənzərə övladlarımızın dərin vətənpərvərlik hisslərinə mənsub olmalarıdır. 30 ildə Azərbaycanda yeni bir nəsil formalaşıb. Bu gün cəbhədə döyüşən igidlərimizin böyük əksəriyyəti 1990-cı illərin əvvəllərində baş verən hadisələrin şahidləri deyillər. Amma onlar sanki o dövrü yaşamış insanlar kimi düşmənlə döyüşürlər, torpaqlarımızı azad edirlər.

Bəli, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ən böyük uğurlarından biri də bütün cəmiyyətimizin vətənpərvər ruhda olmasıdır. Bu işdə indiyədək görülən bir sıra işlərin, xüsusən dövlətçilik tariximizin öyrənilməsi, milli rəmzlərimizə yüksək ehtiramla yanaşılması mühüm əhəmiyyət kəsb edir. Məhz İlham Əliyevin sərəncamı ilə ölkəmizdə hər il noyabr ayının 9-u Dövlət Bayrağı Günü kimi qeyd edilir. Məhz İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində Dövlət Bayrağı Meydanı salınıb. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb. Bütün bunlar xalqımızın vətənpərvərlik hisslərinin daha da yüksəlməsinə xidmət edən mühüm amillərdir

Hələ 2016-cı ildə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən Lələtəpə yüksəkliyində sancılan bayrağımız tezliklə bütün işğal altında olan torpaqlarımızdan zəfər sədalarının gələcəyinin müjdəsini verdi. Budur, artıq bayrağımız yağı tapdağından azad etdiyimiz yurd yerlərimizdə dalğalanır. Azərbaycan xalqının milli mənliyini bütün dünyaya nümayiş etdirən İlham Əliyev bu gün tarixi ədaləti sərkərdə qətiyyəti ilə bərpa edir.

Bu gün Ali Baş Komandanımız tarixin gerçəkliyindən, milyonların arzusundan yoğrularaq azadlıq rəmzinə dönən üçrəngli müqəddəs bayrağımızı layiq olduğu ən ali məqama yüksəldir. Azərbaycanı heç bir qüvvə yolundan döndərə bilməz. İndiyə qədər bəzi cəhdlər olsa da, Prezident İlham Əliyev onların hamısını qətiyyətlə dəf etdi, Azərbaycanın haqq yolunda olduğunu bütün dünyaya sübuta yetirdi. Qısa müddətdə düşməni darmadağın edən ordumuzun torpaqlarımızı işğaldan tam azad etməsi bizim müqəddəs məqsədimizdir.

### Bayrağımızın Şuşada dalğalanmasına az qaldı

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Hər bir ölkənin tarixi, xalqın dövlətçilik ənənələri onun rəmzlərində və atributlarında öz əksini tapır. Bu sırada xüsusi yer tutan bayraq qədim zamanlardan bugünümüzədək özünütəsdiq simvolu sayılır. Bayraq tarixən aparılan mübarizələrin, milli-mənəvi inkişaf yollarının, eyni zamanda mənsub olduğu xalqın təfəkkür və düşüncə tərzinin göstəricisidir.

Xalqın mübarizəsini və milli-mənəvi kimliyini göstərən belə bayraqlardan biri bu gün beynəlxalq təşkilatlarda, ən mötəbər tədbirlərdə və idman yarışlarında vüqarla dalğalanır, bəşəriyyətə suveren bir dövlətin ən gözəl təqdimatını verir. Bu, azadlığımız, istiqlalımız uğrunda apardığımız mübarizələri, mənəvi dünyamızı, milli mənsubiyyətimizi özündə birləşdirən üçrəngli, ay-ulduzlu bayrağımızdır. İlk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin təsis etdiyi, Ulu Öndər Heydər Əliyevin 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi ucaltdığı müqəddəs bayrağımız xalqımızın azadlıq məfkurəsinin, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyinin ən böyük tərənnümçüsüdür.

Azərbaycanın Dövlət bayrağı Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci ildə qurulan sovet hakimiyyəti xalqımızın kimliyini, tariximizi unutdurmaq yolu tutduğu üçün ay-hilallı bayrağımızdan imtina etmişdi. Lakin xalqımızın müstəqillik arzusu heç vaxt tükənmədi, milli dəyərlərə sadiqliyimiz heç vaxt bizləri tərk etmədi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti ilə 1991-ci ilin fevralında Azərbaycan Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi. Bununla da üçrəngli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq olundu və bu müqəddəs istiqlal rəmzimiz bütün Azərbaycanda dalğalanmağa başladı.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətində diqqət çəkən əsas məqamlardan biri dövlətçilik tariximizə və dəyərlərimizə xüsusi ehtiramla yanaşı, onların təbliği məqsədi ilə mühüm qərarlar qəbul etməsidir. Belə ki, məhz cənab İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında" sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən bayraığmızın təsdiq edildiyi tarix - noyabr ayının 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Eyni zamanda Bakının ən gözəl yerlərindən birində Dövlət Bayrağı Meydanının yaradılması da dövlət başçısının milli rəmzlərimizə olan yüksək ehtiramının göstəricisidir. Bütün bunlar ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edən olduqca mühüm addımlardır.

Bu günlərdə Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri yazılır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu torpaqlarımızı Ermənistanın işğalından azad edir. Olduqca qısa müddətdə 27 ildir işğal altında qalan Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan azad edilib. Artıq əsgərlərimizin ayaq səsləri Şuşanın, Xankəndinin yaxınlığından gəlir. Hər gün işğaldan azad edilmiş yaşayış məskənlərimizin sıralarına yeni adlar yazılır. İndi işğaldan azad edilmiş ərazilərimizdə yenidən Azərbaycan bayrağı ucalır...

Ümumiyyətlə, Vətən müharibəsi həm də onu göstərdi ki, xalqımızın bayraq sevgisi olduqca böyükdür. Bu günlərdə ölkəmizin hər yeri üçrəngli bayrağımıza büründü. Küçələrimiz, evlərimiz, iş yerlərimiz, hətta avtomobillərimiz bayrağımızla bəzəndi.

Prezident İlham Əliyev öz fəaliyyəti ilə torpaqlarımızın işğaldan azad edilməsinin zamanını yetişdirdi. Dövlətimizin inkişafı, ordumuzun qüdrətlənməsi və Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzu torpaqlarımızın güc yolu ilə azad edilməsində rol oynayan əsas vəsilələrdir. Bu gün İlham Əliyevin Ali Baş Komandanı olduğu Azərbaycan Ordusu cəbhədə uğurla irəliləyir. Eyni zamanda cənab Prezident Azərbaycana olan xarici təzyiqlərin qarşısını məharətlə alır, ölkəmizə qarşı diplomatik cəbhənin yaranmasına imkan vermir.

Azərbaycan artıq Böyük Qələbənin astanasındadır. Cənab İlham Əliyevin dediyi kimi, bizim bayrağımız Xankəndidə, Şuşada dalğalanacaq və o günə lap az qalır. Hər bir azərbaycanlı böyük səbirsizliklə həmin tarixi anları gözləyir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

metro

# Bakı Metropoliteni – 53





# Yeraltı şəhərin tarixində mühüm mərhələ

## İnkişafın keşməkeşli yolları ilə yüksəlişə doğru

















Metro tarixində xüsusi yer alan daha bir layihə uzun illər həll edilməyən bir məsələ kimi "Nərimanov" elektrik deposunda sınaq yolunun istismara verilməsidir. Bu da metropolitenin öz bazasında istehsal edilən beton blokların tətbiqi ilə mümkün olub. Ümumiyyətlə, son illlərdə "Nərimanov" elektrik deposu simasını tamamilə dəyişməklə yanaşı, mövcud istehsalat və istismar sahələrinin yeni tələblər səviyyəsində modernləşdirilməsi, texnoloji və infrastruktur yeniliklərinin tətbiqi ilə diqqət çəkir. Elektrik mühərriklərinin təmiri sexinin istifadəyə verilməsi elektrik avadanlıqlarının nəinki təmiri və qulluğu, onların inventarlaşdırılmasına, sistemli şəkildə düzgün istifadə edilməsinə imkan verib. Bundan əlavə, avtomobil qarajının əsaslı təmiri, yeni funksional yük həyətinin qurulması iş və texnoloji proseslərin maksimallaşdırılmasına şərait yaradıb.

Metropolitendə sərnişin təhlükəsizliyi və yüksək xidmət mədəniyyətinin təmin edilməsi gecə növbəsində aparılan işlərdən çox asılıdır. "Bakı Metropoliteni" QSC yaradıldıqdan sonra tunellərə qulluğu və təmiri həyata keçirən sahələrin modernləşdirilməsi, bu xüsusda yolun plan və profildə vəziyyətinə nəzarəti həyata keçirən avadanlıq və cihazların alınması, kompüter yoxlaması mexanizmlərinin tətbiqi, tunel geyiminin keyfiyyətinin yoxlanılması, xüsusi boyaq maddələrinin seçilməsi və onların ölkəmizdə istehsalı ilə məşğul olan müəssisələrin inkişafına da dəstək verən qarşılıqlı praktiki fəaliyyətin təmin olunması, yeni təsərrüfat qatarlarının alınması və s. işlər xüsusi qeyd oluna bilər.

Enerji təchizatı sisteminin təkmilləşdirilməsi, gücləndirilməsi metronun fasiləsiz işinin əsas təminatlarındandır. Son illər bu sahədə əsaslı yeniliklər edilib. Depo ərazisində qatarların dartı qüvvəsini artıran, eləcə də oradakı istehsalat sahələrinin elektrik enerjisinə olan ehtiyacını tam şəkildə ödəmək üçün 2 yarımstansiya yenidən inşa olunaraq, ən müasir avadanlıqla təmin edilib. "Gənclik", "İçərişəhər", "Elmlər Akademiyası" və digər bir neçə yarımstansiyada təmir-yenilənmə işləri aparılıb. Amma əldə edilən ən böyük inqilabi yenilik metroda alternativ enerji mənbəyindən istifadə imkanlarının yaradılmasıdır.

Metronun sabit enerji təchizatı sisteminə malik olmasına baxmayaraq, bəzi hallarda rayon, eləcə də ölkənin elektrik sistemində yaranan problemlər yeraltı yollarda hərəkətin dayanmasına səbəb olub. Sonuncu dəfə belə hadisə 2018-ci il iyulun 3-də baş verdi. "Azərbaycan" İstilik Elektrik Stansiyasındakı qəza Bakının, eləcə də metronun normal fəaliyyətinə öz təsirini göstərdi. Elektrik enerjisinin qəfil kəsilməsi metronun texniki qurğularının, stansiya və tunellərdə qatarların dayanmasına səbəb oldu. Stansiyalararası yol mənzillərində qalan qatarlardan sərnişinlər qəza işıqları altında təxliyə edildi. Ertəsi gün ölkənin enerji sistemində yaranmış vəziyyətlə əlaqədar müşavirədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev metropolitenin enerji təminatı, fövqəladə hallarda yeraltı nəqliyyatın ehtiyat elektrik təchizatı məsələsi ilə bağlı təkliflərin qısa müddətdə hazırlanması barədə tapşırıq verdi.

Qeyd edək ki, Bakı Metropoliteninin perspektiv inkişaf sxeminə uyğun olaraq, yeni xətlərin inşasında alternativ enerji təminatı məsələsi nəzərdə tutulub və hazırda yeni sahələrdə dizel-generator stansiyaları tikilir. Onlar qatarların tunellərdən stansiyaya çıxarılmasını, stansiya, tunel və vaqonların işıqlandırılmasını, bütün suxaric qurğularının, stansiya infrastrukturunun - ventilyatorların, eskalator, lift və travolatorların minimal enerji tələbini ödəyəcək.

Dövlət başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin icrası üzrə işlər kollektiv tərəfindən təxirə salınmadan başladı. "Bakı Metropoliteni" QSC müvafiq dövlət strukturları, o cümlədən ölkənin enerji sektorunun mütəxəssisləri ilə ətraflı müzakirələrdən sonra fəaliyyət istiqaməti müəyyən edildi. Metropolitenin enerji tələbatının xüsusiyyətləri nəzərə alınmaqla fövqəladə hallarda elektrik enerjisinə ehtiyacın yeni tikilən sahələrdə olduğu kimi, dizel elektrik stansiyaları vasitəsilə təmin edilməsi daha məqsədəuyğun hesab edildi. "Azərişıq" ASC-nin 10 yarımstansiyasında "Rolls-Royse Power Systems AG MTU" GmbH şirkətinin müxtəlif gücə malik 17 generatoru yerləşdirildi. Dizel-elektrik stansiyaları fəaliyyətə başlayana qədər baş verə biləcək fövqəladə hallarda yeraltı qrunt sularını metro tunellərindən xaric edən drenaj qurğuları 450 kVA gücə malik ehtiyat mobil dizel elektrik stansiyası ilə təmin edildi.

*(Əvvəli qəzetin 6-7 noyabr tarixli nömrələrində)*

Metropolitenin alternativ enerji mənbəyinin yaradılması üzrə işlər bu ilin əvvəlində başa çatdı. Metronun müxtəlif sahələrində keçirilən sınaqlardan sonra bütün xətlərdə əsas yoxlama, baş məşq aparıldı. Metropoliteni bütün kənar enerji mənbələrindən tam təcrid etməklə 4 saat ərzində keçirilən məşqlər zamanı qatarların hərəkəti, stansiyaların və tunellərin işıqlandırılması, kommunikasiya vasitələrinin - drenaj qurğularının, eskalatorların, ventilyatorların, rabitə vasitələrinin qidalanması muxtar enerji mənbələrindən - generator stansiyalarından təmin olundu.

Fövqəladə hallarda adi enerji sistemindən alternativ sistemə keçmək avtomatik olaraq baş verir. Bütün generatorların ümumi gücü ilə qatarların hərəkətini xüsusi qrafik üzrə təmin etmək mümkündür. Bununla da Prezidentin metroda alternativ enerji mənbələrinin yaradılması barədə göstərişləri yüksək səviyyədə yerinə yetirildi.

Metroda xidmət mədəniyyətinin səviyyəsi xeyli dərəcədə stansiya və tunellərdə mikroiqlim şəraitinin normativ göstəricilərinin təmin olunmasından asılıdır. Bakı Metropoliteni tarixinin hazırkı mərhələsinin ilk günlərindən aparılan araşdırmalar bu sahədə müəyyən uyğunsuzluqların, nöqsanların olmasını aşkar etdi. Buraya sistem avadanlıqlarının, ventilyatorların böyük bir hissəsinin istismar müddətinin başa çatmasına görə tələb olunan səmərənin hasil olmaması, ventilyatorların iş rejiminin düzgün qurulmaması, hava axınında məhsuldarlığın təmin olunmaması kimi amillər daxil idi. İstismar müddəti başa çatmış ventilyatorların daha məhsuldar və səmərəli avadanlıqlarla əvəz edilməsi məqsədilə dünyanın aparıcı şirkətlərinin məhsullarının monitorinqi aparıldı. Metropolitenin bütün tələblərinə uyğun olan avadanlığın alınması üçün Rusiyanın Artyomovsk şəhərində yerləşən "Ventprom" maşınqayırma zavodu ilə müqavilə imzalandı. Müqaviləyə görə istehsalçı ventilyatorları sifarişçinin texniki tələblərini nəzərə almaqla hazırlamalı idi. Hazır məhsullar zavod şəraitində sifarişçinin iştirakı ilə keçirilən hərtərəfli sınaqdan sonra qəbul edildi. Sınaq prosesində ventilyatorların bütün texniki parametrləri, idarəetmə lövhələri, nəzarət-məlumat vericilərinin "Bakı Metropoliteni" QSC-nin texniki tapşırıqlarına uyğunluğu yoxlanıldı. Yeni ventilyatorların rejimini 30 saniyə ərzində axından sovurmaya və əksinə dəyişmək mümkündür. Bu isə təhlükəsizliyin artırılması, fövqəladə hallarda bir rejimdən digərinə daha çevik keçid baxımından mühüm əhəmiyyət kəsb edir. Hava axınının daha səmərəli və məhsuldar yayılmasına, həmçinin platforma səviyyəsinə birbaşa yönəlməsi məqsədilə quraşdırma zamanı hər bir detala, hətta ventilyatorların döşəmə səviyyəsindən hündürlüyünə də xüsusi diqqət yetirilib. Ventilyatorun idarəetmə sistemləri istehsalçı müəssisə tərəfindən "Siemens" və "Schneider" şirkətlərinin avadanlıqları üzərində qurulub. Yeni ventilyatorların səsi normalardan aşağı olsa da, sərnişin rahatlığı baxımından müasir səsboğucularla da təmin olunub. Yeni səsboğucular effektiv və istismar üçün daha əlverişlidir.

Ümumiyyətlə, 2014-cü ildən bu günə kimi metropolitendə 17 ventilyator təzələnib. Ötən il 7, bu il isə daha 10 ventilyator alınıb. Hazırda alınmış ventilyatorların koronavirus pandemiyasının müvafiq tələblərinə ən ciddi şəkildə əməl olunmaqla quraşdırılması davam edir. Eyni zamanda təbii ventilyasiyanın imkanlarından da səmərəli istifadə etmək üçün müvafiq tədbirlər həyata keçirilib. Bununla da son iki ildə stansiyaların mikroiqlim şəraitini normal tələblər çərçivəsinə salmaq mümkün olub və bəzi stansiyalarda havanın keyfiyyət göstəriciləri daha yüksəkdir.

Metronun normal fəaliyyətini təmin edən digər istehsalat sahələrində də əməyin təşkili və səmərəliliyin artırılması məqsədilə işlər görülüb. İstehsal sahələri təkmilləşdirilib, genişləndirilib, səmərəsiz sahələri, avadanlıqları yeniləri ilə əvəz edilib. Elektrik mühərriklərinin əsaslı təmir xidməti, depodakı təsərrüfat sahələrini istiliklə təmin edən yeni qazanxana, suvurma qurğusu istifadəyə verilib. İstilik xətləri üçün kollektor tikilib. Deponun özündə təmir-baxış qanovlarının təmiri davam edir və ən müasir tələblər səviyyəsinə çatdırılır. Qanovların 825 voltluq elektrik şəbəkəsində yeni sistemin qurulması üzrə işlər sona çatmaq üzrədir.

Yeni xətlərin tikintisində bütün çətinliklərə baxmayaraq irəliləyişlər var. "Bənövşəyi xətt"in üçüncü stansiyasında (şərti adı "B-3") artıq tamamlama işləri son mərhələyə qədəm qoyub. Bu xəttin "Xocəsən" deposunda əsas obyektlərin tikintisinə başlanılıb. Deponu "Avtovağzal" stansiyası ilə birləşdirən tunellərdə qazıntı işləri başa çatıb. Sağ tunelin yolu hazırdır, sol tuneldə isə yol-tikinti işləri davam edir.

Bütün yeniliklər kadr potensialı olmadan həyata keçirilə bilməz. Yeni dövrün tələbləri, yeni texnologiyalar da öz şərtlərini diktə edir. Metropolitendə təlim və tədris prosesinə keyfiyyətcə yeni baxış gətirilib. 2014-cü il sentyabrın 16-dan metropoliten tarixində ilk dəfə tədris mərkəzi fəaliyyətə başladı. 2019-cu ilin sonlarından isə mərkəz ən son texnoloji və tədris prosesi əsasında tamamilə yenidən qurulmuş binada fəaliyyətini davam etdirməyə başladı. Bu isə təlim və tədris prosesinin keyfiyyətini artırmaqla yanaşı, onun məzmun, yanaşma, eləcə də proqram və vəsait bazasını yeniləməklə peşə bilikləri və bacarıqlarının artırılmasına, işə qəbul prosesinin yeni imkanlarından faydalanmağa şərait yaratdı. Eyni zamanda tədris ocaqları ilə işgüzar münasibətlərə də yeni baxış gətirildi.

Bu xüsusda qeyd olunmalıdır ki, qatar maşinistini metropolitenin siması da adlandırırlar. Aparıcı dünya təcrübəsi öyrənilməklə postsovet məkanında ilk dəfə məhz Bakıda metro qatarlarının maşinistləri üçnövbəli iş rejiminə keçirilib, işin keyfiyyəti və səmərəsi artırılıb. Bununla yanaşı, Bakı metropoliteni tarixində ilk dəfə maşinistlər yeni qayda ilə - yeni qatarların idarə edilməsinin zəruri etdiyi tələblərə uyğun seçilir. 2018-ci ilin oktyabrında bu qayda ilə başlanmış ilk kursu uğurla başa vuran maşinistlər bir ildən də artıqdır ki, xətlərdə qatarları peşəkarlıqla idarə edirlər. Kursu müvəffəqiyyətlə bitirənlər arasında Bakı Metropoliteni tarixinin ilk qadın maşinisti də var. Bu işlər davamlı aparılır və təkcə 2020-ci ildə iki belə kurs fəaliyyətə başlayıb. Pandemiya şəraitinin qaydaları nəzərə alınmaqla kurslardan biri uğurla başa çatdırılıb, digərində isə təlimlərə başlanılıb.

Metropolitendə platforma növbətçisi üzrə yeni tipli kadr seçimi prosesi də ilk dəfə 2020-ci ildə tətbiq edilib və artıq təlimlərə start verilib. Bundan əlavə, xüsusi olaraq təcrübə mübadiləsi qaydası ilə yeni kadrların hazırlanması layihəsi də başlanılıb və pandemiya ilə mübarizənin müəyyən münasib mərhələsində bu iş ali təhsil ocaqları ilə davam etdiriləcək.

Ümumən, bütün dünyanı bürüyən yeni koronavirus - COVID-19 pandemiyasının narahatlıqlarına, çətinliklərinə rəğmən 2020-ci il Azərbaycan xalqının tarixinə Böyük Qələbə ili kimi yazılacaq. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin torpaqlarımızın azad olunması uğrunda illərlə həsrətlə gözlədiyimiz əmrini şərəflə yerinə yetirən, Azərbaycanın haqq işi uğrunda döyüşən ordumuz bizi tezliklə böyük sevincə qovuşduracaq.

***2020-ci il bizim üçün Böyük Qələbə ili olacaq.***

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Avstraliyanın ingilis və ərəb dillərində yayımlanan "Farah news" saytı Azərbaycan Silahlı Qüvvələrinin daha yeddi kəndi işğaldan azad etməsi barədə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda, həmçinin sentyabrın 27-dən başlayan döyüşlərdə oktyabrın 10-dan sonra üç dəfə atəşkəs elan olunsa da, Ermənistanın hər üç halda atəşkəs barədə razılaşmanı pozaraq mülki əhaliyə və hərbi obyektlərə hücum etdiyi bildirilir.

Eyni zamanda Türkiyənin daim Azərbaycanın haqq işini müdafiə etdiyi və Ermənistan ordusunun işğal altındakı ərazilərdən çıxarılmasını dəstəklədiyi vurğulanır. Diqqətə çatdırılır ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan ordusunun Azərbaycanın işğal altındakı torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etsə də, işğalçı ölkə bu tələbi 27 il ərzində yerinə yetirməyib.

❖ ❖ ❖




Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanın EFE xəbər agentliyinə Bakıdan videokonfrans formatında verdiyi müsahibə bu ölkənin ən qədim nəşrlərinin, aparıcı xəbər portallarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, İspaniyanın ən qədim qəzetlərindən biri olan "La Vanguardia", həmçinin "Eldiario" online nəşri, "es.finance.yahoo.com" portalı Azərbaycanın dövlət başçısının müsahibəsini "Azərbaycan Prezidenti: "Ermənistan gedərsə, biz müharibəni dərhal dayandıracağıq", "Əliyev indi Ermənistan prezidenti ilə danışıqlar masasına əyləşməyin mənasını görmür" sərlövhələri ilə dərc ediblər.

Bildirilib ki, müsahibədə Azərbaycan Prezidenti 2018-ci ildən hakimiyyətdə olan N. Paşinyanla dəfələrlə görüşdüyünü, lakin bütün görüşlərin, demək olar ki, faydasız olduğunu diqqətə çatdırıb.

İspaniya mətbuatı yazır ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün bərpası uğrunda müharibədə Ermənistan üzərində aşkar hərbi üstünlüyə malikdir.

❖ ❖ ❖




Rumıniyanın nüfuzlu "News24-hours" xəbər portalı Azərbaycan Ordusunun Qarabağ uğrunda gedən döyüşlərdəki uğurlarından bəhs edib.

AZƏRTAC-a istinadla yayılan məqalədə müharibənin ilk günlərindən indiyədək olan rəsmi statistika öz əksini tapıb.

Rəşadətli Ordumuzun tezliklə qələbə çalacağına, Azərbaycan əzəli torpaqlarının düşməndən azad olunacağına böyük inam ifadə olunub.

❖ ❖ ❖

Bütün dünyanın diqqəti ABŞ-da prezident seçkilərinə yönəldiyi bir vaxtda Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanın EFE agentliyinə müsahibəsi Latın Amerikası mətbuatında diqqətlə izlənilir.

AZƏRTAC xəbər verir ki, həmin müsahibə geniş oxucu auditoriyasına malik olan, ən çox ziyarət edilən "Holanews", "Infobae", "Clarin", "Noticiasxtra" xəbər portalları kimi onlayn-nəşrlərdə "Azərbaycan Prezidenti: "Ermənistan Azərbaycan torpaqlarını tərk etsə, biz müharibəni dərhal dayandırarıq" sərlövhəsi ilə dərc olunub.

Nəşrlərdə vurğulanır ki, əgər Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini tərk edərsə, şəxsən baş nazir Nikol Paşinyan Ermənistanın məğlubiyyətini etiraf edərsə və qoşunların çıxarılmasının vaxt cədvəlini təqdim etmək barədə öhdəlik götürərsə, onda Azərbaycan Dağlıq Qarabağda müharibəni dərhal dayandırar.



❖ ❖ ❖



"Azərbaycanın işğal altındakı ərazilərində PKK-nın mövcudluğu Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində terrorçu fəaliyyətini təsdiq edən növbəti sübutdur".

Bu fikri AZƏRTAC-a açıqlamasında İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Həmrəyliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri, saxta "erməni məsələsi" üzrə tədqiqatçı Ziya Zakir Acar bildirib.

Azərbaycan tərəfinin bu mövzuda əldə etdiyi dəlillərin və digər sübutların terrorçuların və muzdlu əsgərlərin münaqişəyə cəlb edilmə məsələsində Ermənistanı beynəlxalq hüquq qarşısında fakt qarşısında qoyduğunu diqqətə çatdıran tədqiqatçı deyib: "Ermənistan terror gücünə yaranan bir dövlət olduğu üçün bu istiqamətdə fəaliyyət təcavüzkar ölkənin rəhbərliyi üçün normaya çevrilib. Beynəlxalq təşkilatlar, terror əleyhinə olan dünya birlikləri, eləcə də insan haqları məhkəmələri Ermənistanın terrorçu siyasətinə ən qısa zamanda reaksiya verməlidir. Əks halda, digər ölkələrin də terrorçulardan istifadəsi geniş yayıla bilər. Türkiyə ictimaiyyəti olaraq Ermənistanın Azərbaycana qarşı muzdlu döyüşçülərdən və terrorçulardan istifadə etməsini kəskin şəkildə qınayırıq. Muzdlu döyüşçüləri və terrorçuları Ermənistana ixrac edən, onların keçidinə tranzit imkanı yaradan ölkələrə də çağırış edirik - bu prosesi dayandırın! Terrorçudan fayda götürmək əbədi ola bilməz. Əbədi olan ədalət, sülh və əmin-amanlıq, haqqı müdafiə etmək istiqamətlərində səy göstərməkdir".

❖ ❖ ❖



İndoneziyanın Azərbaycanda 2016-2020-ci illərdə səfiri olmuş Hüsnan Bəy Fanani Ermənistan-Azərbaycan münaqişəsi, işğal altındakı torpaqlarımızın Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilməsi ilə bağlı "YouTube" kanalında orijinal paylaşım edib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti təxribatından sonra ordumuzun mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün başladığı əks-hücumu dəstəklədiyini yerli KİV-də daim qeyd edən indoneziyalı diplomat bu dəfə ifa etdiyi musiqi nömrələri ilə Azərbaycanın bu haqq işində İndoneziyanın onun yanında olduğunu bildirib.

"YouTube" kanalında yayımlanan "Salam from Indonesia" adlı video İndoneziyada populyarlığı ilə seçilən "İndonesia Pusaka" ("İndoneziya irsi") mahnısından parça ilə başlayır. Ana Vətənə həsr olunan mahnıdan parçanı ifa etdikdən sonra sabiq səfir İndoneziyanın Azərbaycanı salamladığını deyir. Bildirir ki, bütün İndoneziya xalqı Azərbaycan xalqının Dağlıq Qarabağı Ermənistanın işğalından azad etməsini alqışlayır: "Yaşasın Azərbaycan! Azərbaycan, Azərbaycan, Azərbaycan çox yaxşı!"

Bu sözlərdən sonra Hüsnan Bəy Fanani görkəmli bəstəkar və müğənni Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısını ifa edir.

İndoneziyalı sabiq səfir Azərbaycana dəstəyini "Əssalamü əleykim və rəhmətullahi bərəkət" sözləri ilə tamamlayır.

❖ ❖ ❖




İnformasiya müharibəsində iştirak edən "Karabakh is Azerbaijan!" Milli Platformasının fəaliyyət istiqamətlərindən biri də araşdırma sahəsidir. Platforma müxtəlif ölkələrdəki erməni terror təşkilatları haqqında məlumatlardan ibarət olan video yayıb.

"Karabakh is Azerbaijan!" Milli Platformasından AZƏRTAC-a bildiriblər ki, videoda indiyədək fəaliyyət göstərmiş, dünyanın müxtəlif ölkələrində terror aktları törətmiş 13 erməni terror təşkilatı haqqında məlumatlar toplanıb. Videoda ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin açıqladığı arxiv sənədlərindən istifadə edilib.

❖ ❖ ❖




Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyasının təşəbbüsü və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə ABŞ-ın Florida ştatının Mayami şəhərinin mərkəzi yollarında Azərbaycan bayrağının və Qarabağ atlarının təsvir olunduğu, "Karabakh is Azerbaijan" şüarı yazılmış lövhələr quraşdırılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, assosiasiyanın sədri Tövhə Eminova lövhələrin ermənilərin sıx yaşadığı ərazilərdə - "Fort Lauderdale" beynəlxalq hava limanının önündə və ABŞ-ın digər ştatlarına gedən yolları birləşdirən mərkəzi hissədə quraşdırıldığını deyib. O bildirib ki, bu yerlər təsadüfi seçilməyib. Məqsəd odur ki, daha çox insan lövhələri və "Karabakh is Azerbaijan" şüarını görsün. Assosiasiya rəhbəri ənənənin ABŞ-ın digər ştatlarında da davam etdiriləcəyini deyib.

Tövhə Eminova, həmçinin əlavə edib ki, ABŞ-da yaşayan azərbaycanlılar Ermənistanın işğalçılıq və terror siyasətinə qarşı bir yumruq kimi birləşiblər.

Qeyd edək ki, lövhələrin dizaynı ABŞ-da yaşayan həmyerlimiz Cəmilə Cavadovaya və Bakıda çalışan dizayner Emin Rzayevə məxsusdur.

❖ ❖ ❖




Səudiyyə Ərəbistanı Krallığının ingilis dilində nəşr olunan nüfuzlu "Arabnews" qəzeti Azərbaycanın bu ölkədəki səfiri Şahin Abdullayevin Ermənistanın hərbi təcavüzünün nəticələri barədə məqaləsini dərc edib.

AZƏRTAC xəbər verir ki, "Erməni təcavüzünə qarşı tədbirlər görülməlidir" sərlövhəli məqalədə Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı hücumlarının beynəlxalq ictimaiyyət tərəfindən pisləndiyi və bu qınaqların davam etməsinin zəruriliyi vurğulanır. Diqqətə çatdırılır ki, sentyabrın 27-də Ermənistanın işğal etdiyi ərazilərdəki təmas xəttində növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusu cavab tədbirləri görməyə məcbur olub. Həmçinin Ermənistan tərəfi oktyabrın 10-da Moskvada imzalanmış humanitar atəşkəs razılaşmasından cəmi 15 dəqiqə sonra şəhər və kəndlərə raket hücumlarını davam etdirib. Belə ki, oktyabrın 11-də Gəncə şəhərinin raket hücumuna məruz qalması nəticəsində 10 mülki şəxs həlak olub, 30 nəfər yaralanıb. Oktyabrın 15-də Ermənistan silahlı qüvvələri Tərtər rayonunda dəfn mərasimində iştirak edən dinc sakinləri atəşə tutub və 4 nəfəri qətlə yetirib. Oktyabrın 17-də Gəncəyə daha bir raket hücumu isə 13 mülki şəxsin həlak olması və 40 nəfərin yaralanması ilə nəticələnib. Ümumilikdə, Ermənistan silahlı qüvvələri Azərbaycanın şəhər və kəndlərində 91 mülki şəxsi qətlə yetirib, 371 nəfəri yaralayıb, 2800-dən çox mülki obyekti dağıdıb.

Məqalədə qeyd olunub ki, oktyabrın 18-də BMT-nin Baş katibi Antonio Quterreş Gəncəyə hücumlar nəticəsində mülki şəxslərin, o cümlədən uşaqların həlak olmasını pisləyib və bu cür əməllərin yolverilməz olduğunu vurğulayıb. Avropa İttifaqı da Ermənistanın bu vəhşiliyi ilə əlaqədar bəyanat yayıb. Bütün bunlara baxmayaraq, Ermənistan silahlı qüvvələri oktyabrın 27-də Bərdə şəhərinə qadağan olunmuş kasetli bombalarla hücum edərək aralarında uşaq da olmaqla 4 mülki şəxsi qətlə yetirib, daha 14 nəfəri yaralayıb. Bir gün sonra isə erməni tərəfi Bərdədə 22 dinc sakini qətlə yetirib, 70 nəfəri isə yaralayıb.

Müəllif qeyd edib ki, humanitar atəşkəsə əməl etməyən və regionda gərginliyi artıran Ermənistan üçüncü tərəfləri də münaqişəyə cəlb etmək məqsədi güdür. Məqalənin sonunda vurğulanır: "Beynəlxalq ictimaiyyət mülki şəxsləri məqsədyönlü şəkildə qətlə yetirən Ermənistanın beynəlxalq hüquq normalarına əməl etməsi istiqamətində zəruri tədbirlər görməli və onun Azərbaycanın işğal olunmuş ərazilərindən tamamilə çıxmasını tələb etməlidir".

❖ ❖ ❖




Amerikada çıxan "Newsweek" jurnalında Azərbaycan aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqal, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr ata və Qafqaz müsəlmanları idarəsinin sədri Hacı Allahşükür Paşazadənin imzası ilə "Qarabağın gələcəyi naminə bir məsləkdəyik" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifləri - Azərbaycanın yəhudi, xristian pravoslav və müsəlman icmalarının liderləri dünya KİV-ində yayılmış, ölkəmizin qoşulduğu "müqəddəs müharibə"də xristianların guya təhlükədə olması barədə xəbərlərə münasibət bildirməyi qərara alıblar.

Ermənistan ilə Azərbaycan arasında münaqişənin eskalasiyası bütün dünyanın gözü qarşısında baş verir. Başqalarının istəyindən asılı olmayaraq bu münaqişə heç də dini xarakter daşımır və Azərbaycan "işğalçı müsəlman" rolu oynamır. Azərbaycanın monokonfessional, monoetnik mühitində aşkenazi yəhudiləri icması, unikal dağ yəhudiləri icması, katolik və pravoslav xristianlar, habelə erməni kilsəsi rahat fəaliyyət göstərir. Hətta Azərbaycanda islam dininə etiqad edənlər də eyni məzhəbə aid deyil. Bizim vətəndaşlar arasında sünnilər də var, şiələr də.

Ermənistanın sırf xristian ölkəsi olması isə əsla şübhə doğurmur. Azərbaycan ərazilərinin 1988-1994-cü illərdə Ermənistan tərəfindən işğal edilməsi nəticəsində 300 mindən çox azərbaycanlı Ermənistandan qaçqın vəziyyətinə düşüb. Bu insanların əksəriyyəti müsəlmanlardır. Müharibənin gedişində 700 minə yaxın azərbaycanlı Dağlıq Qarabağdan və ona bitişik ərazilərdən qovulub. Azərbaycanın beynəlxalq miqyasda tanınmış əraziləri olan bu torpaqlar indiyə qədər mənfur qonşular tərəfindən işğal edilib.

Müəlliflər daha sonra qeyd edirlər ki, Azərbaycan işğalçı dövlət deyil. Münaqişənin nizamlanması üçün Azərbaycanın təklif etdiyi yol hazırda Dağlıq Qarabağda yaşayan insanların oradan qovulmasını deyil, işğaldan əvvəl həmin ərazidə yaşayan insanların oraya qayıtmasını nəzərdə tutur. Azərbaycan əyani şəkildə göstərib ki, bu ölkədə eyni şəhərlərdə kilsələr, sinaqoqlar və məscidlər dinc yanaşı fəaliyyət göstərə bilər.

Müəlliflər yazırlar: "Gəncə şəhəri raketlərlə atəşə tutulanda aşkenazi yəhudilərinin baş ravvini həmin şəhərə gedib, oradakı yəhudi ailələri ilə birlikdə dua edib. Arxiyepiskop Azərbaycan Silahlı Qüvvələrində könüllü xidmət edən gənc xristian əsgərin dəfn mərasimini təşkil edib. Müfti yaxınlarını itirmiş çoxsaylı müsəlman ailələrinə təsəlli verib. Biz görüşərək birgə dua etmişik. Din adamları kimi bizim borcumuz xalqlarımızın hansı konkret dinə etiqad bəsləməsindən asılı olmayaraq onların yanında olmaqdır".

❖ ❖ ❖




"Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi nə etnik zəmindədir, nə də dini zəmində. Vəziyyətə diqqətlə yanaşmaq lazımdır. Azərbaycan dünyəvi ölkədir, multietnik və çoxdinli parlamentli respublikadır. Bakıda kilsə məscid və sinaqoqla eyni küçədə yerləşir. Bizim üçün din məsələsi mövzu deyil. Azərbaycanda da erməni azlığı yaşayır. Sovet İttifaqı dövründə Ermənistanda olan Azərbaycan mənşəli bütün azlıq 1987-ci ildə oradan qovuldu. Ölkəmizdəki azlıqların hüquqları Ermənistandan daha yüksək səviyyədə təmin edilir. Ermənistanda etnik müxtəliflik yoxdur. Münaqişənin xristian və İslam dinlərik arasındakı ziddiyyətlə heç bir əlaqəsi yoxdur. Münaqişə ərazi bütövlüyü səbəbindən baş verib".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev bu ölkənin "Le Courrier de l'Atlas" jurnalına müsahibəsində yer alıb. Diplomat Dağlıq Qarabağ münaqişəsinin dini zəmində olmadığını, Ermənistanın beynəlxalq səviyyədə dəstək almaq məqsədilə münaqişəyə dini don geyindirdiyini diqqətə çatdırıb.

Fransanın mövqeyi ilə bağlı sualı cavablandıran səfir bildirib ki, bu ölkənin mövqeyi başadüşüləndir. Bu ölkənin mövqeyinə təsir edən Fransa-Türkiyə gündəmi, erməni lobbisinin təsiri və tarixi amillər var. "Ümid edirəm ki, Fransa bu münaqişədə bitərəfliyini qoruyacaq. Xarici işlər nazirimiz Fransanın Minsk qrupunda olmasının vacibliyini təkrarladı. Fransa balanslı mövqeyə sahib olmalıdır. Digər ölkələr (Liviya, Suriya, Mali) üçün tanınan suverenliyin bizim ölkəmizə də şamil olunmasını istəyirik. Bunun Azərbaycan üçün niyə istisna edildiyini anlamırıq. Halbuki, prinsiplər eynidir. Fransa BMT Təhlükəsizlik Şurasının qətnamələrinə dörd dəfə səs verib", - deyə R. Mustafayev qeyd edib.

Azərbaycanda muzdluların olması məsələsinə toxunan diplomat vurğulayıb ki, Prezident Emmanuel Makron bu barədə Brüsseldə danışıb. Hər şeydən əvvəl beynəlxalq hüquq "cihadçı" sözünü tanımır. Çox açıq bir termin var - "xarici döyüşçülər". Azərbaycan Prezidenti dəfələrlə bildirib ki, 100 min nəfərlik ordumuz var və bizim "xarici döyüşçülərə" ehtiyacımız yoxdur. Ordumuz tək özü ölkəmizi müdafiə etməyə qadirdir. Bu gün ordumuz nəyə qadir olduğunu döyüş meydanında göstərir. Azərbaycanın öz ərazisinə "xarici döyüşçülər" dəvət etməsinə ehtiyac yoxdur. Bundan əlavə, Azərbaycan qanunları onun ərazisində radikal islamçı və cihadçı partiyaların olmasını qadağan edir. Cihadçıların tək və ya qrup şəklində etdiyi hər bir cəhd mühakimə olunur. Ölkəmizə qarşı qeyri-real və haqsız olan bu iddialara artıq rəsmi şəkildə cavab verilib.

"Ancaq erməni əsilli fransız döyüşçülər döyüş bölgəsinə gediblər. Bu barədə "La Liberation" qəzeti yazıb. Bu prosesə qarşı çıxmaq lazımdır. Bu vəziyyət bir çox suallar doğurur", - deyə səfir vurğulayıb.

❖ ❖ ❖



Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Şahin Abdullayev "Əl-Ərəbiyyə" telekanalına müsahibə verib. Telekanalın xəbərlər buraxılışının qonağı olan səfir Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirib.

AZƏRTAC xəbər verir ki, aparıcının Ermənistanın Rusiyadan kömək istəməsi ilə bağlı sualını cavablandıran diplomat hər iki ölkənin vahid hərbi bloka üzv olduğunu bildirib. Səfir ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın münaqişənin nizamlanmasındakı rolundan danışıb və Azərbaycan Prezidenti İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi son müsahibələr zamanı Minsk qrupunun fəaliyyəti ilə bağlı dediklərindən misal gətirib. Ş.Abdullayev Minsk qrupunun 28 illik fəaliyyəti nəticəsində hər hansı irəliləyişin əldə olunmadığını bildirib.

Şahin Abdullayev BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrin münaqişənin həlli üçün baza təşkil etdiyini diqqətə çatdırıb və Azərbaycanın yeganə tələbinin həmin qətnamələrin müddəalarının icrası olduğunu bildirib. Diplomat ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Fransa və Rusiyanın həmin qətnamələrin lehinə səs verdiklərini vurğulayıb.

Səfir Ermənistanın qonşu dövlətlərə ərazi iddialarından da danışıb. Həmçinin Ermənistanın baş naziri Nikol Paşinyanın dünya liderlərinə zəng edərək onlara Azərbaycana təsir göstərmək üçün yalvardığını diqqətə çatdırıb.

Aparıcının Yerevanın münaqişə zonasına rusiyalı sülhməramlıların yerləşdirilməsi ilə bağlı çağırışlarına Moskvanın cavabı, Gümrüdə Rusiya hərbi bazasının yerləşdirilməsi və Azərbaycanın Rusiyanın hazırkı mövqeyindən razı qalıb-qalmadığı ilə bağlı sualına cavab verən Ş.Abdullayev Rusiyanın Gümrüdə dislokasiya olunmuş 102-ci hərbi bazasının uzun müddətdən bəri orada mövcud olduğunu bildirib. Qeyd edib ki, Rusiya, bəzi Qərb dövlətləri, hətta İraq kimi bəzi ərəb ölkələrindən alınan silahlar olmasaydı, Ermənistan Azərbaycanla sülhə razı olardı. Diplomat münaqişənin həlli üçün yeganə şərtin Ermənistanın Azərbaycan işğal altındakı ərazilərindən çıxması olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyevin ölkəmizin münaqişəyə kənar dövlətlərin müdaxiləsinin əleyhinə olması ilə bağlı fikirlərinə dair sualı şərh edən səfir Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu və bunun dünya ictimaiyyəti tərəfindən də qəbul edildiyini deyib. Diplomat Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əks-həmlə əməliyyatı nəticəsində BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin bəzilərinin elə Azərbaycanın özü tərəfindən icra olunduğunu bildirib.

❖ ❖ ❖



Avstraliyanın geniş oxucu auditoriyasına malik olan "The Australian" qəzeti Dağlıq Qarabağda baş verən son hadisələri təhrif edən məqaləyə Azərbaycanın müvəqqəti işlər vəkili Ramil Qurbanovun cavab məktubunu dərc edib.

AZƏRTAC xəbər verir ki, azərbaycanlı diplomat qəzetin redaksiyasına ünvanladığı məktubda sentyabrın 27-dən başlayaraq Ermənistan və Azərbaycan arasında baş verən döyüşlərlə əlaqədar qəzetdə dərc olunmuş reallığı təhrif edən yazı ilə əlaqədar etirazını bildirib.

Qəzetin dərc etdiyi məktubda diplomat Azərbaycanın yeddi rayonu ilə birlikdə Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağın ölkəmizin ayrılmaz hissəsi olduğunu bildirib. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş və Ermənistanın işğalçı qoşunlarının Azərbaycanın beynəlxalq səviyyədə tanınan bütün işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin bu günədək yerinə yetirilmədiyini diqqətə çatdırıb.

Bildirib ki, Ermənistan tərəfindən minlərlə insanın öldürülməsi və 800 min azərbaycanlının öz doğma yurdlarından qovulması ilə nəticələnən Azərbaycan ərazilərinin qanunsuz ilhaqının davam etməsinə baxmayaraq, Ermənistan rəhbərliyi Azərbaycan ərazisinə və əhalisinə qarşı yeni təcavüz aktları həyata keçirməyi planlaşdırıb. Qeyd edib ki, sentyabrın 27-dən başlayaraq Ermənistan hərbi birləşmələrinin məqsədyönlü şəkildə Azərbaycanın sıx məskunlaşmış şəhərlərini qadağan edilmiş silahlardan atəşə tutması nəticəsində 91 günahsız insan həlak olub. Ermənistandan fərqli olaraq dinc sakinləri hədəfə almayan müzəffər Azərbaycan ordusunun öz peşəkarlığına və qüdrətinə söykənərək ölkənin suveren ərazisi daxilində düşmənə layiqli cavab verdiyi vurğulanıb.

Məktubda postsovet məkanında ən monoetnik ölkə olan Ermənistandan fərqli olaraq Azərbaycanda bütün millətlərin, dini inanc sahiblərinin sülh və əmin-amanlıq içərisində yaşadığı qeyd olunub.

Həmçinin Avstraliyanın da Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə davamlı dəstək göstərməsi, işğal edilmiş ərazilərdəki hər hansı separatçıları tanımadığı barədə rəsmi mövqeyinə diqqət yönəldilib.

❖ ❖ ❖




İsveçrənin nüfuzlu "Tages Anzeiger" qəzetinin tematik əlavəsi olan dərgisində Azərbaycanın İsveçrədəki səfiri Xanım İbrahimova ilə müsahibə dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibədə Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ regionunun gələcək inkişafına dair fikirlərinə geniş yer verilib. Qeyd edilib ki, Prezident İlham Əliyevin "Biz Qarabağ regionunun gələcəyini dinc bir ərazi kimi görürük. Biz öz investisiyalarımızla və quruculuq təcrübəmizlə bu regionu dünyanın ən firavan regionlarından birinə çevirə bilərik. Lakin bundan ötrü müharibənin nəticələri aradan qaldırılmalıdır" sitatı bu gün İsveçrənin bütün siyasi xadimləri tərəfindən yaxından izlənilən dərgidə xüsusi olaraq vurğulanıb.

Azərbaycan səfiri Xanım İbrahimova müsahibəsində Ermənistanın Azərbaycana qarşı təcavüzü və qızıl yataqlarının qanunsuz istismarına geniş diqqət ayırıb. İşğaldan azad olunmuş Zəngilan rayonu ərazisində yerləşən əlvan metal yataqlarından qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan İsveçrə Konfederasiyasında rəsmi qeydiyyatdan keçmiş şirkətlərin və şəxslərin aşkarlandığını bildirən səfir məhz İsveçrədə məskunlaşan, "Goldstar" şirkətinin və "Frank Muller" saat brendinin erməni əsilli rəhbəri Vartan Sirmakes tərəfindən qızıl yataqlarının qanunsuz istismar edildiyi faktlarının üzə çıxdığını vurğulayıb. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən yayılmış bəyanat səfir tərəfindən qeyd olunaraq, işğal olunmuş və artıq işğaldan azad edilmiş ərazilərimizdə bütün sahələr üzrə qanunsuz fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin milli və beynəlxalq qanunvericilik əsasda məsuliyyətə cəlb ediləcəklərini bildirib.

Səfir Gəncə və Bərdə şəhərləri daxil olmaqla cəbhə bölgəsindən uzaqda yerləşən digər şəhər və qəsəbələrdə Ermənistanın işğalçı qüvvələri tərəfindən dinc əhaliyə qarşı hərbi cinayətlərin törədildiyini və nəticədə çoxlu sayda mülki şəxsin yaralanaraq həlak olduğunu, bununla da humanitar atəşkəslərin kobudcasına pozulduğunu diqqətə çatdırıb. Məhz Cenevrə Konvensiyasına və digər beynəlxalq humanitar hüquqa əsasən, mülki insanların və şəhərlərin vurulmasının beynəlxalq əhəmiyyətli cinayət olduğunu bildirən səfir Xanım İbrahimova Ermənistan silahlı qüvvələrinin Ağcabədi, Bərdə, Goranboy və Tərtər bölgələrinə dəfələrlə ağır artilleriya hücumları ilə mülki infrastrukturun ciddi şəkildə zədələndiyini vurğulayıb.

Baş verən son hadisələrin başlanğıcının əsas səbəbkarı kimi Ermənistan göstərilib - Ermənistan hökumətinin həm təxribat xarakterli bəyanatları və hərəkətləri, həm də atəşkəs rejiminin hər gün pozulması faktları qeyd edilib. Məhz bu səbəblə, hazırda Azərbaycanın öz ərazi bütövlüyünü döyüş meydanında böyük əzmlə bərpa etdiyini qeyd edən səfir Prezident İlham Əliyevin "Biz BMT Təhlükəsizlik Şurasının qərarlarını təkbaşına yerinə yetiririk" sözlərini bir daha İsveçrə siyasi xadimləri və ictimaiyyətinin diqqətinə çatdırıb.

❖ ❖ ❖




Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova bu ölkənin "BGO-NAİR" televiziya kanalına və "DARİK" radiosuna müsahibə verib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq təmas xətti boyunca Azərbaycanın mövqelərini atəşə tutmasından bəhs edən N.Qurbanova təcavüzkar qüvvələrin ölkəmizin işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin hələ də yerinə yetirilmədiyini diqqətə çatdırıb.

Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən əlavə, ətraf 7 rayonu işğal etməsi faktına diqqət çəkən səfir işğal olunmuş ərazilərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə, həmçinin qeyri-qanuni məskunlaşdırma siyasəti aparıldığını qeyd edib. Son bir neçə gün ərzində Ermənistan tərəfindən Azərbaycan kəndlərinin və mülki əhalinin atəşə tutulduğunu, nəticədə mülki əhali arasında ölən və yaralananların olduğunu vurğulayan N.Qurbanova cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə şəhərinə ballistik raketlərlə hücumun bunun bariz nümunəsi və insanlıq əleyhinə cinayət olduğunu deyib. Bu xüsusda qeyd olunub ki, Azərbaycan tərəfi Cenevrə Konvensiyasına uyğun olaraq mülki əhalini hədəfə almır.

Münaqişənin tarixi barədə məlumat verən səfir ölkəmizin ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz doğma torpaqlarından didərgin düşdüyünü, Azərbaycan tərəfinin münaqişənin siyasi yolla həll edilməsinin tərəfdarı olduğunu diqqətə çatdırıb.

N.Qurbanova vurğulayıb ki, əvvəlki cinayətkar hərbi xuntanı devirən Nikol Paşinyanın hakimiyyətə gəlişi ilə Ermənistanda rəhbərlik dəyişikliyi əvvəllər münaqişənin həllində müəyyən ümidlərə yol açsa da, yeni baş nazir ölkədə inkişaf vədləri yerinə yetirmək iqtidarında ola bilməməsi, daxili siyasi gərginlik və xalqının narazılığı fonunda münaqişə ilə bağlı mövqeyini radikallaşdırıb. Türkiyə və ya muzdluların Azərbaycan tərəfindən münaqişəyə cəlb olunmasını təkzib edən səfir qardaş ölkənin münaqişə tərəfi kimi iştirakı barədə erməni tərəfinin yaydığı bütün şayiələrin təxribat xarakteri daşıdığını, Azərbaycanın strateji tərəfdaşı olmasına baxmayaraq, Minsk qrupunun üzvü olan Türkiyənin münaqişədə iştirak etmədiyini, ölkəmizə siyasi dəstək göstərdiyini və ordumuzun öz xalqının və ərazisinin müdafiəsini təmin etmək üçün hazırlıqlı olduğunu qeyd edib. Bildirilib ki, Ermənistan tərəfindən çox sayda əcnəbi muzdlular və terrorçuların döyüşməsinə dair faktlar mövcuddur.

Bundan əlavə, Azərbaycanın Ermənistan ərazisində nə hərbi, nə də mülki hədəfinin olmadığını deyən diplomat BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq Azərbaycanın özünümüdafiə və işğal olunmuş ərazilərini azad etmək hüququna sahib olduğunu vurğulayıb.





# Azərbaycan Ermənistanı döyüş meydanında cəzalandırır

*Əvvəli 1-ci səh.*

*Çünki ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb edirdi. Əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq".*

Bakı həmişə danışıqlar prosesinə sadiq olub. Atəşkəsin elan edilməsindən ötən 26 ildə Azərbaycanın nümayiş etdirdiyi səbr də bunu təsdiq edir. Respublikamız vasitəçilərin münaqişənin həlli ilə bağlı təklif etdikləri variantlara həmişə diqqətlə yanaşıb. Bu illər ərzində bir neçə dəfə problemin həlli istiqamətində irəliləyişlər olsa da, hər dəfə Ermənistanın ucbatından müzakirələr yarımçıq qalıb. Səbəb də bu ölkənin işğal siyasətindən əl çəkməməsi, nəinki Dağlıq Qarabağı, ətrafda olan digər rayonları da ilhaq etmək istəməsi olub. Sentyabrın 27-dən sonra azad olunan bütün Azərbaycan ərazilərinin adlarının erməniləşdirilməsi göstərir ki, Ermənistan işğal etdiyi torpaqlarımızı azad etmək niyyətində olmayıb.

Danışıqlar nəticəsiz qaldığından sentyabrın 27-dən başlanan hərbi əməliyyatlarda Azərbaycan özünün beynəlxalq hüquqla təsbit olunmuş haqqını güc yolu ilə təmin edir. Azərbaycan torpaqlarını azad etməklə yanaşı, həm də işğalçı Ermənistanı layiqincə cəzalandırır, ona dərs verir, sübut edir ki, döyüş meydanında məhvə məhkumdur.

## 60 suriyalı erməninin Zəngilanda qanunsuz məskunlaşdırılması aşkar olundu

Məlum olduğu kimi, 2 il əvvəl Ermənistanda iqtidara gələn N.Paşinyan hakimiyyətini möhkəmləndirdikdən sonra danışıqlardan imtina etməklə yanaşı, Azərbaycana qarşı siyasi, hərbi və humanitar təxribatlara başladı. Livandakı partlayışdan sonra ermənilərin işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonlara köçürülərək qanunsuz məskunlaşdırılması da ölkəmizə qarşı olan təxribat idi. Sosial şəbəkələrdə Livandan olan ailələrin Azərbaycan xalqı üçün böyük tarixi və mənəvi əhəmiyyətə malik olan Şuşa şəhərində yerləşdirilməsi haqda məlumatlar yayılmışdı.

Azərbaycan da daxil olmaqla, dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən Ermənistan bu faciədən, insanların iztirablarından özünün çirkin məqsədləri naminə sui-istifadə etdi. Bununla da Ermənistan onun üçün heç bir mənəvi dəyərlərin olmadığını bir daha bütün dünyaya göstərdi. Məlumdur ki, işğal olunmuş Azərbaycan ərazilərində yaşayış şəraitinin aşağı olması səbəbindən ermənilər imkan düşən kimi oranı tərk ediblər. Buna görə Ermənistanın qeyri-qanuni məskunlaşdırma siyasətini həyata keçirməkdə məqsədi işğal etdiyi Azərbaycan ərazilərində əhalinin sayında yaranmış boşluğu doldurmaq, demoqrafik vəziyyəti dəyişdirmək olub. Eyni zamanda işğalçı ölkə faktiki olaraq köçürülən insanları özünün məsuliyyətsiz, avantürist siyasətinin qurbanına çevirmişdi.

Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən sonra Ermənistanın həyata keçirdiyi qanunsuz məskunlaşdırma siyasəti faktlarla öz təsdiqini tapıb. Belə ki, işğaldan azad olunmuş Zəngilan rayonu ərazisində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin istifadəsində olmuş binada baxış zamanı bəzi sənədli materiallar aşkarlanıb. Həmin materiallar təhlil olunarkən onların arasında Suriya vətəndaşlarına aid siyahı və pasportların surətlərinin olduğu müəyyən edilib. Məlum olub ki, siyahıda adları qeyd olunmuş 60 suriyalı erməni (cəmi 19 ailə) Ermənistan tərəfindən aparılmış qanunsuz məskunlaşma prosesində Zəngilan rayonu ərazisinə köçürülüb. Onlardan 1964-cü il təvəllüdlü Suriya vətəndaşı, Suriyanın Haseke bölgəsinin sakini Baazo Hraj Sepobun, 1969-cu il təvəllüdlü Suriya vətəndaşı, Suriyanın Hələb şəhərinin sakini İskandarian Hartion Avadisin və 1962-ci ildə Suriyada anadan olmuş, Kirakos Babkinin adına verilmiş pasportların kserosurətləri də aşkarlanıb.

## Qanunsuz məskunlaşdırma müharibə cinayətidir

Qanunsuz məskunlaşdırma siyasəti beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulmasıdır. Müharibə dövründə mülki əhalinin qorunmasına dair 4-cü Cenevrə Konvensiyasına əsasən, işğalçı dövlət öz mülki əhalisini işğal etdiyi əraziyə köçürməməlidir. İşğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasəti həm də müharibə cinayətidir. Beynəlxalq Cinayət Məhkəməsinin Statutuna əsasən, "İşğalçı dövlət tərəfindən öz mülki əhalisinin bir hissəsini işğal etdiyi əraziyə birbaşa və ya dolayı yolla köçürməsi" müharibə cinayətini təşkil edir. Ermənistanın özünün də qanunvericiliyinə görə bu əməllər cinayət hesab olunur. Belə ki, Ermənistanın Cinayət Məcəlləsinin 390-cı maddəsində işğalçı dövlətin işğal olunmuş ərazilərdə əhalini çıxararaq öz əhalisini məskunlaşdırması beynəlxalq humanitar hüququn ciddi pozuntusu sayılır və buna görə 8-12 il cəza nəzərdə tutulur.

Xatırladaq ki, 1946-cı ildə Əsas Hərbi Cinayətkarların məhkəmə işində Nürnberq Beynəlxalq Hərbi Tribunalı ittiham olunanların ikisinin işğal olunmuş ərazilərin "almanlaşdırılması" cəhdində təqsirli olduğu barədə qərar vermişdi. BMT Təhlükəsizlik Şurasının 1992-ci ildə keçmiş Yuqoslaviya üzrə qəbul etdiyi 752 nömrəli qətnamə də "keçmiş Yuqoslaviyanın hər yerində əhalinin etnik tərkibini dəyişdirmə cəhdlərini dayandırmağa" çağırıb.

Azərbaycan Ermənistanın işğal olunmuş ərazilərimizdə qanunsuz məskunlaşdırma həyata keçirməsi ilə bağlı dəfələrlə beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırıb. Artıq Ermənistanın müharibə cinayətləri öz təsdiqini tapır. Bütün bunlar Ermənistanın işğalçı dövlət olmasının beynəlxalq məhkəmələr tərəfindən təsdiq olunmasında mühüm dəlillər olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ermənilər özlərinə qarşı da qəddardırlar

Müharibə edən ölkənin gözü və qulağı daim düşmən tərəfdə olmalıdır. Çünki onun nə dediyini, nə etdiyini və nə etmək istədiyini bilmək vacibdir. Azərbaycan sentyabrın 27-dən bugünə kimi düşmənə hərbi, siyasi, diplomatik və informasiya cəbhələrində böyük zərbələr endirib. Nəticədə Ermənistan rəhbərliyi qorxuya düşüb və bu səbəbdən çox hallarda onun nə dediyini, nə istədiyini başa düşmək olmur. Gah deyir sona qədər döyüşəcəyik, gah " sülh" istəyir, gah da başqa ölkələrə hərbi yardım üçün müraciət edir.

Aşkar görünür ki, Ermənistan təşviş və qorxu içindədir. Artıq işğalçılar müharibənin hansı fəlakətlərə səbəb olduğunu anlamağa başlayıblar. Yaxşı haldır ki, erməni cəmiyyəti bu müharibənin səbəbkarının Paşinyan iqtidarı olduğunu başa düşür. Bu üzdən də cəmiyyətin qəzəb və nifrəti ona qarşı tuşlanıb. Paşinyan isə canını qurtarmaq üçün bütün vasitələrdən istifadə edir, o cümlədən günahı Türkiyənin boynuna yıxmaq istəyir. Bununla məğlubiyyətinin səbəbini Türkiyəyə yönəltməyə çalışır. Məqsədi bu yolla məsuliyyətdən can qurtarmaqdır. Lakin bacaracaqmı?

Azərbaycan Ordusunun Dağlıq Qarabağı və ətraf 7 rayonun işğaldan azad edəcəyi gün yaxınlaşdıqca Ermənistanın atdığı şər-böhtanın sayı da çoxalır. Əvvəl bu ölkənin rəhbərliyi deyirdi ki, Dağlıq Qarabağda yerli ermənilər öz "vətən"ləri üçün "düşmənlə ölüm-dirim savaşı aparır". Ardınca da Ermənistanda total hərbi səfərbərlik həyata keçirildi. Adamdan soruşarlar: əgər Ermənistan döyüşlərdə iştirak etmirsə, onda bu səfərbərlik nə üçündür? Niyə bu gün Dağlıq Qarabağda döyüşənin Ermənistan ordusu olduğunu boynunuza almırsınız?

Bir maraqlı fakt da ermənilərin anadangəlmə döyüşçü olduqları barədə illərlə uydurduqları mifin tamamilə dağılmasıdır. Artıq erməni əsgəri Azərbaycan ərazisində döyüşmək istəmir. Son dövrlər bu ölkədə koronavirusa yoluxanların sayının sürətlə artması da xəstəliyin özü ilə bağlı deyilmiş. Ermənistanlı gənclər cəbhəyə getməmək üçün koronavirusa tutulduqları barədə saxta tibbi arayışlar alaraq hərbi komissarlığa təqdim edirlər. Bununla Dağlıq Qarabağda döyüşməkdən yayınırlar.

Demə, ermənilər təkcə bizə qarşı qəddar deyillərmiş, özlərinə qarşı da hər cür vəhşiliklər törətməyə qadirdirlər. Məsələn, təzəcə ata olan cavan erməni Dağlıq Qarabağda döyüşməsi barədə hərbi komissarlıqdan arayış gətirməsə, onun övladına doğum haqqında şəhadətnamə verilmir. Şərtə əməl edilmədikdə üstəlik dünyaya gələn körpə və onun anası xəstəxanada girov kimi saxlanılır. Digər tərəfdən, Dağlıq Qarabağdakı mülki şəxslərə döyüş bölgəsini tərk edib Ermənistana getməyə də imkan verilmir. Adətən, canavarlar ac olanda bir-birini parçalayır. Hadisələr təsdiqləyir ki, ermənilər əsl canavar xislətlidirlər.

Ermənistanda "arsax" ermənilərinə olan sevgi də yalan imiş. Onları qızışdırıb illərlə dinc şəraitdə yanaşı yaşadıqları azərbaycanlılarla qəsdən düşmən ediblər. İndi Dağlıq Qarabağdan Ermənistana sığınan ermənilərə qarşı qeyri-insani rəftar göstərilir. Ümumiyyətlə, bu müharibədə ən çox sarsılan, peşman olan da elə Qarabağ erməniləridir. Ermənistan dövləti onları minimum şəraiti olan yaşayış yerləri ilə təmin etmək belə, istəmir. Onlar da məcbur olub kirayə yaşamaq və ya zirzəmilərdə məskunlaşmaq məcburiyyətində qalırlar. Üstəlik, Ermənistanın sıravi vətəndaşları bu fəlakətin səbəbkarı kimi onları görürlər. Beləliklə, hazırda erməni cəmiyyətində ciddi qarşıdurma və parçalanma hökm sürür. Bu vəziyyət gündən-günə dərinləşir. İndi Ermənistanda hamı ölkədə baş verə biləcək vətəndaş müharibəsindən qorxur.

Ermənistan üçün fəlakət günü yaxınlaşdıqca Paşinyana olan təziqlər də artır. Dağlıq Qarabağdakı hərbi vəziyyəti müzakirə edən generallar belə, iclas zamanı məğlubiyyətin səbəbkarı kimi onu hədələyir. Din xadimi isə həkim əvəzinə ona "ruhi xəstə" diaqnozunu qoyaraq "gəzən fəlakət" adlandırır. Zorla Dağlıq Qarabağdakı döyüşlərə cəlb edilən, yaralanıb əsir düşən erməni keşişi Hovsep Saakyan Araratoviç deyir: "Döyüşdə mənimlə bərabər 60 nəfər idik. Deyə bilərəm ki, onlar döyüşmək istəmirdilər. Əksəriyyəti gənclər idi, hər kəs evinə qayıtmaq, ailələrinə qovuşmaq istəyirdi".

Qana susamış Paşinyanın isə ermənilərin nə düşünməsi vecinə deyil. "Qələbə" qazananacan vuruşacağını bəyan edib öz soydaşlarını qırğına verir. Onun bu qəddarlığı erməni cəmiyyətində olan narazılıqları daha da artırır. İndi bir məsələ məlum deyil: Paşinyanı kim cəzalandıracaq: bizmi, yoxsa ermənilərin özlərimi? Məlum olan odur ki, Ermənistanın təlxək, psixi xəstə olan baş naziri mütləq cəzalandırılmalıdır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev zavallı, ruhi xəstə, üstəlik, insan qanına susamış Paşinyanla danışıqların aparılmasının mənasız olduğunu bildirib. Bu həm də o deməkdir ki, Paşinyan iqtidarının sonu çatıb.

Bu gün Ermənistandakı reallıq belədir: xalq xaos, qorxu içində yaşayaraq fikirləşir ki, birdən türklər dayanmayıb Ermənistan ərazisinə (Qarabağdan əllərini üzüblər) girsə, nə olacaq? Digər tərəfdən, övladlarından xəbər ala bilməyən anaların qəzəbi iqtidarı qorxuya salıb. Ən başlıcası isə, artıq ermənilər Dağlıq Qarabağda ölmək istəmirlər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Düşmənin artilleriya atəşi Ağdam rayonunun suvarma sisteminə ziyan vurub

Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrini intensiv artilleriya atəşinə tutması nəticəsində Ağdam rayonunda yaşayış evləri, inzibati binalar, sosial obyektlər, elektrik və qaz təsərrüfatı ilə yanaşı, suvarma sisteminə də xeyli ziyan dəyib.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Ağdam Mexaniki Suvarma İdarəsinin rəisi Hafiz Əzimzadə AZƏRTAC-a bildirib ki, Ağdam rayonunun ərazisinin böyük hissəsi 1993-cü ildə Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilib, təbii su mənbələri işğal altında qalıb. Xüsusən Sərsəng su anbarının işğal altında olması rayonda əkinlərin suvarma suyu ilə təminatında çətinliklər yaradıb. Odur ki, rayonun işğal altında olmayan ərazilərindəki əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi əsasən subartezian quyuları vasitəsilə həyata keçirilir.

Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayan artilleriya atəşi nəticəsində mexaniki suvarma idarəsinin inzibati binasına, bir texnikaya və ilkin məlumata görə, 6 subartezian quyusuna ziyan dəyib. Bundan başqa, yüksəkgərginlikli elektrik xətlərinin qırılaraq üst-üstə düşməsi nəticəsində 32 ədəd subartezian quyusunun nasosu yanıb. "Düşmənin artilleriya atəşinə baxmayaraq, əkinlərin suvarma suyu ilə təmin olunmasını yerinə yetiririk. Hər birimiz özümüzü bir əsgər hesab edərək rayonun suvarma suyuna olan təminatını ödəməyə çalışırıq", - deyə H.Əzimzadə bildirib.

Qeyd edək ki, Ağdam Mexaniki Suvarma İdarəsi rayonun 35 min 400 hektar əkin sahəsinin suvarılmasını, eləcə də 75 min nəfər əhalinin içməli və təsərrüfat suyuna olan tələbatının ödənilməsini həyata keçirir. İdarənin balansında 964 ədəd subartezian quyusu, 4 nasos stansiyası, 11 kəhriz, 4 suyığıcı göl, 365 kilometr suvarma kanalı, 192 hidrotexniki qurğu var.

## *Qumlaq sakini Əli MİRZƏYEV:*

# "Kəndimizin azad edilməsi və övladımın hərbçi olması mənə ikiqat qürur hissi yaşadır"



Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb və bir çox yaşayış məntəqələrimizi düşmən tapdağından xilas edib. Onlardan biri də Cəbrayıl rayonunun Qumlaq kəndidir. Bu kənd oktyabrın 19-da azad olunub.

AZƏRTAC xəbər verir ki, Qumlaq kəndinin sakinlərinin 27 illik vətən həsrəti artıq başa çatıb. Qumlaqlılar indi doğma el-obalarına qayıtmağa hazırlaşırlar.

Qumlaq sakini Əli Mirzəyevin qonağı olan müxbirimiz bu ailənin sevinc hisslərini bölüşüb. Əli Mirzəyev deyib: "Doğma yurdumuza tez qayıtmaq istəyirik. 27 il köçkün həyatı yaşamışıq. Dövlət tərəfindən bizə lazımi şərait yaradılıb, lakin ürəyimizdə hər zaman bir boşluq olub. O, vətən həsrəti idi. Artıq bu həsrət də sona çatdı, doğma yurdumuza qovuşmuşuq. Bu anı həmişə böyük ümidlə gözləmişik".

Həmsöhbətimiz qeyd edib ki, oğlu da ön cəbhədə düşmənlə üzüzə döyüşür: "Kəndimizin azad edilməsi və övladımın hərbçi olması mənə ikiqat qürur hissi yaşadır", - deyə o bildirib.

Əli Mirzəyev doğma kəndindən danışarkən deyib: "Qumlaq Araz çayının sol sahilində yerləşir. Diri dağının ətəyində olan yurdumuz çox bərəkətli bir yerdir. Oradakı firavan həyatımızdan 27 ildir uzaq düşmüşük. Amma o gözəl günlərə qovuşmağa az qalıb. Kəndimizdən bizə qalan acı xatirələr isə erməni faşizminin izləridir. İndi o torpaqlar əsl sahibinə qayıdır, həmin yerlər yenidən canlanacaq, firavan həyat başlayacaq".

Erməni faşizmi nəticəsində iki dəfə yurdundan didərgin düşən Kəklik Qafarova isə deyib ki, əslən Qərbi Azərbaycandandır: "İllər öncə biz öz yurdumuzdan köçərək Cəbrayıla gəldik, sonra oradan da qaçqın düşdük. İlk illər çadırlarda çətin günlər yaşadıq. Daha sonra dövlətimiz bizi lazımi şəraitlə təmin etsə də, hər zaman vətən həsrəti ilə yaşadıq. Ötən illərin nisgili oktyabrın 19-da sevinc hissləri ilə əvəz olundu. Biz buna görə Ali Baş Komandanımıza və ordumuza təşəkkür edirik. İndi uşaqdan-böyüyə hər birimiz sevinirik".















## Tərtərli fermerlər şəkər çuğunduru yığımını davam etdirirlər

Ermənistan silahlı qüvvələrinin təxribatlarına, yaşayış məntəqələrini artilleriya atəşinə tutmasına baxmayaraq, Tərtər rayonunun fermerləri şəkər çuğunduru yığımını davam etdirirlər. Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Arif Behbudov AZƏRTAC-a bildirib ki, torpaq mülkiyyətçiləri bu il 301 hektar sahədə şəkər çuğunduru səpini həyata keçiriblər. Tərtərli fermerlər sahələrin 64 hektarında yığım aparıb, 2880 ton məhsul əldə ediblər. Hər hektarın orta məhsuldarlığı 450 sentnerdir. Yığılan məhsul İmişli şəkər zavoduna təhvil verilir.

Qeyd edək ki, vacib texniki bitki hesab edilən şəkər çuğundurundan həm şəkər istehsalı üçün, həm də heyvandarlıqda yem kimi istifadə olunur.

# Yeni karantin qaydaları əhalinin sağlamlığını qorumaq məqsədi daşıyır





*Əvvəli 1-ci səh.*

Lakin noyabrın 7-dən 23-dək həmin ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti tam dayandırılacaq. İnfeksiyanın geniş yayıldığı şəhər və rayonlarımızda tətbiq olunan yeni qaydalar ölkəmizdə sanitar-epidemioloji vəziyyəti sabitləşdirmək, xəstəliyin digər ərazilərdə yayılmasını mümkün qədər məhdudlaşdırmaq, əhalinin sağlamlığını qorumaq məqsədi daşıyır.

### Aztəminatlı şəxslərə 190 manat birdəfəlik ödəmələr ediləcək

Pandemiyadan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən mühüm tədbirlər həyata keçirilir. Azərbaycan dövləti hər zaman olduğu kimi, müharibə şəraitində olduğumuz hazırkı dövrdə də əhalinin sosial təminatı ilə bağlı məsələləri diqqət mərkəzində saxlayır və bununla bağlı zəruri tədbirləri davam etdirir. Belə ki, xüsusi karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayonda muzdlu işçilərin əmək haqları üzrə müvafiq ödənişlər ediləcək və fərdi (mikro) sahibkarlara birdəfəlik maliyyə dəstəyi göstəriləcək, həmçinin işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən aztəminatlı şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmələr ediləcək.

Həmin şəhər və rayonlar üzrə 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra müvafiq ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçiriləcək. Bunun üçün vətəndaşların təkrar müraciətinə ehtiyac yoxdur. Vəsait birdəfəlik ödəməni almaq üçün banklar tərəfindən verilmiş kartlara köçürüləcək və bu barədə onlara SMS vasitəsilə rəsmi bildiriş göndəriləcək. Birdəfəlik ödəmənin 100 mindən çox şəxsi əhatə edəcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, bu ilin aprel-may aylarında işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən şəxslərdən ibarət 600 min nəfərə, habelə sonralar sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayonlar üzrə 3-cü və 4-cü dəfə birdəfəlik ödəmələr verilib və bu məqsədlə ümumilikdə 332 milyon manat sərf olunub.

### BMT Baş Assambleyasının xüsusi sessiyası çağırılacaq

Pandemiya dövründə ölkəmiz tək iqtisadi, sosial sahədə deyil, beynəlxalq arenada da özünü güclü dövlət kimi göstərdi. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşlərini təşkil etməklə dünyanı birləşdirdi. Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının (QH) sədri İlham Əliyevin təşəbbüsü ilə QH-ya üzv ölkələr adından pandemiyaya qarşı dövlət və hökumət başçıları səviyyəsində videokonfrans formatında BMT-nin xüsusi sessiyasının keçirilməsi təklif edildi. Bu təşəbbüs həm QH ölkələri, həm də digər BMT üzv dövlətləri tərəfindən dəstəkləndi, 130-dan çox ölkə öz rəsmi dəstəyini ifadə etdi.

2020-ci il iyulun 10-da xüsusi sessiya rəsmi olaraq öz işinə başladı. Çoxsaylı müzakirələr zamanı xüsusi sessiyanın sədrliyi, keçirilmə qaydaları və digər önəmli məsələlər haqda qərarlar verildi. Müzakirələrin sonunda 5 noyabr 2020-ci il tarixində BMT Baş Assambleyası öz plenar iclasında "Koronavirus xəstəliyi (COVID-19) pandemiyasına cavab olaraq Baş Assambleyanın xüsusi sessiyası" ilə bağlı qətnaməni qəbul etdi. 150 ölkə bu qətnamənin lehinə səs verərək Prezident İlham Əliyevin təşəbbüsünü növbəti dəfə dəstəklədi. Qətnaməyə əsasən, Azərbaycan Respublikasının Prezidenti tərəfindən QH üzv ölkələri adından irəli sürülən təşəbbüs əsasında BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş, dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının bu ilin 3-4 dekabr tarixlərində keçirilməsi qərara alındı.

COVID-19 pandemiyası kimi qlobal təhdidə qlobal bir cavab lazımdır. İnamla demək olar ki, pandemiyaya qarşı mübarizədə qlobal liderlik rolunu məhz Prezident İlham Əliyev öz üzərinə götürdü və bu vacib missiyada BMT-nin fəaliyyətinə təkan verdi. Bu təşəbbüs pandemiyaya qarşı mübarizədə müstəsna əhəmiyyətə malikdir və inanırıq ki, bu müzakirələr nəticəsində bəşəriyyəti pandemiyanın cəngindən xilas edə biləcək önəmli qərarlar veriləcək.

### Karantin qaydalarına əməl etmək hamımızın borcudur

Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə təkcə insanlar deyil, dövlətlər də bir olmağa, birlikdə mübarizə aparmağa borcludurlar. Bizim isə vətəndaş olaraq aparacağımız mübarizə, üzərimizə düşən məsuliyyət karantin qaydalarına riayət etməkdir. İaşə obyektləri, ictimai nəqliyyat, istənilən qapalı məkan, insanların sıx toplaşdığı yerlər infeksiyaya yoluxmaq üçün əlverişli məkanlardır. Vətəndaşlarımız mümkün qədər bu cür yerlərdən uzaq durmalı, kütləvi tədbirlərdə iştirakdan çəkinməlidir. Bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına riayət etmək, sosial məsafəni gözləmək, tibbi maskalardan istifadə etmək, şəxsi gigiyena qaydalarına əməl etmək hamımızın borcudur.

Müharibə şəraitində olduğumuz bir vaxtda biz yaxınlarımız, ailə üzvlərimizlə bərabər, həm də torpaqlarımızın işğalçılardan təmizlənməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşən əsgər və zabitlərimizi düşünməliyik. Çünki COVID-19-un geniş yayılması onların sağlamlıqları üçün də ciddi təhlükə yaradır. Odur ki, Vətən müharibəsində xalq olaraq göstərdiyimiz birliyi, həmrəyliyi koronavirusla mübarizə cəbhəsində də nümayiş etdirməliyik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Koronavirusa daha 1410 nəfər yoluxub, 779 nəfər isə sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 1410 yoluxma faktı qeydə alınıb, 779 nəfər müalicə olunaraq sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 13 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 63 min 748 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 48 min 49 nəfər müalicə olunaraq sağalıb, 824 nəfər vəfat edib. Aktiv xəstə sayı 14875 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 429 min 508 test aparılıb. Dünənki test sayı isə 12140-dır.

## Qaxda polis və Daxili Qoşunların əməkdaşları gücləndirilmiş iş rejimində xidmət aparırlar

Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" qərarındakı dəyişikliyə əsasən, noyabrın 7-də saat 00:00-dan etibarən respublikanın 10 şəhər və rayonunun, o cümlədən Qax rayonunun inzibati ərazisinə giriş-çıxış dayandırılıb.





AZƏRTAC xəbər verir ki, sərtləşdirilmiş xüsusi karantin rejimi ilə bağlı qərarın icrasının təmin edilməsi üçün Qax rayonunun girişində qurulmuş postlarda rayon polis şöbəsinin və Daxili Qoşunların əməkdaşları tərəfindən zəruri işlər həyata keçirilir. Postlarda operativ və xüsusi nəqliyyat vasitələri, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, digər nəqliyyat vasitələrinin rayon ərazisinə giriş-çıxışı tam dayandırılıb.

Eyni zamanda koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara uyğun olaraq, Qax şəhərində və rayonun kəndlərində xüsusi karantin rejimi qaydalarının təmin olunması üçün ciddi nəzarət tədbirləri həyata keçirilir. Rayon icra hakimiyyəti aparatının məsul nümayəndələrindən və polis əməkdaşlarından ibarət mobil qruplar tərəfindən xüsusi karantin rejimi ilə əlaqədar müəyyən edilmiş qaydalara əməl olunmasını təmin etmək üçün fəaliyyətinə icazə verilmiş ticarət obyektlərində mütəmadi olaraq reydlər keçirilir, əhalinin kütləvi şəkildə toplaşdığı ərazilərdə maarifləndirici təbliğat işləri aparılır. Reydlər zamanı vətəndaşlara gigiyena qaydalarına riayət edilməsinin, tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi izah olunur.

ADY
Azərbaycan Dəmir Yolları QSC
Azərbaycan xalqını
Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir,
Müzəffər Ordumuza
Böyük Qələbə
arzulayır
QARABAĞ AZƏRBAYCANDIR!

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Azərbaycan
xalqını
Dövlət
Bayrağı
Günü
münasibətilə təbrik edir,
Qüdrətli Ordumuza Böyük Qələbə arzulayır
QARABAĞ AZƏRBAYCANDIR!

◆ Ağcabədidən reportaj

# Düşmənin atdığı mərmi jurnalistlərin yaxınlığında partlayıb

**Ermənistan silahlı qüvvələri noyabrın 7-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli, Arasbar, Qaraxanlı və Hacılar kəndlərini ağır artilleriyadan atəşə tutub. Nəticədə sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ziyan dəyib.**



AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri Yuxarı Qiyaməddinli kəndinə gedərək erməni vəhşiliyinin izlərini lentə alıb, sakinlərlə həmsöhbət olub.

Kənd sakini Orxan Şükürov bildirib ki, təkcə bu gün kəndin ərazisinə 40-dan artıq mərmi düşüb. Nəticədə üç evə ziyan dəyib, bir evin hasarı uçub. Kəndin mütəmadi olaraq atəşə tutulmasına, çoxsaylı dağıntılara baxmayaraq, sakinlərin əhvali-ruhiyyəsi yüksəkdir. Hər kəs ordumuza güvənir, qələbənin yaxında olduğuna inanır.

Kənddə olarkən eşidilən partlayış səsi tərəfə yollandıq. Kənd sakini Arzuman Qasımov yonca sahəsini göstərib dedi: "Baxın, elə indicə mərmilərdən biri bura düşərək partladı. Düşmən hər gün kəndi atəşə tutur. Lakin biz kəndimizi tərk etmirik. Ordumuza, Prezidentimizə güvənirik".

A.Qasımovla təzəcə söhbəti bitirib qayıdırdıq ki, mərmilərdən biri də bizim yaxınlığımıza düşərək partladı. Yaxşı ki, xəsarət alan olmadı.





Qeyd edək ki, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı ən çox zərər çəkən, ağrı-acı yaşayan yaşayış məntəqələrindən biridir. Təmas xəttinə yaxın məsafədə yerləşən bu kəndi 1993-cü və 1994-cü illərdə Ermənistan silahlı birləşmələri iki dəfə işğal etsələr də, Azərbaycan Ordusu tərəfindən azad olunub. Kəndi tərk etməyə məcbur qalan ermənilər evləri yandıraraq hər tərəfə mina basdırıblar. Öz doğma yurdlarına qayıdan kənd sakinləri ötən dövr ərzində həm ermənilərin basdırdığı minalardan, həm də atəşkəsi tez-tez pozmasından əziyyət çəkirlər.

Yuxarı Qiyaməddinli kəndi sentyabrın 27-dən başlayaraq, demək olar ki, hər gün artilleriya atəşinə tutulur. İndiyədək kənddə 12 ev tamamilə dağılıb, 60-dan artıq evə ziyan dəyib. 56 baş xırdabuynuzlu, 30 baş iribuynuzlu heyvan, 300 baş ev quşları tələf olub, 1000 ədəd ot bağlaması yanıb.

Günay Bank
Azərbaycan xalqını
Dövlət Bayrağı Günü
münasibətilə
təbrik edir,
qəhrəman
əsgərlərimizə
Böyük Qələbə arzulayır
QARABAĞ AZƏRBAYCANDIR!

AZPETROL

Azpetrol şirkəti
Azərbaycan xalqını
9 Noyabr - Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir, əmin-amanlıq,
birlik, firavan həyat və xoş gələcək,
Şanlı Ordumuza Böyük Qələbə arzulayır




QARABAĞ AZƏRBAYCANDIR!

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir, Azərbaycanın ərazi bütövlüyünün tezliklə təmin olunmasını arzulayır

QARABAĞ AZƏRBAYCANDIR!

# Ermənilər yenidən xarici ölkələrdə terrorçuluğa və təxribatçılığa başlayıblar

Əvvəli 1-ci səh.

Aksiyada Ermənistan xüsusi xidmət orqanlarının dəstxəti də görünür.

Ermənilərin bu cür iyrənc əməlləri bütün dünya ictimaiyyətinə məlumdur. Tarix boyu erməni millətçiləri xarici ölkələrdə azərbaycanlılara və türklərə qarşı terror aktları həyata keçiriblər. Bu gün Ermənistan Azərbaycan tərəfindən Qarabağda məğlub edilir və bu ərazilərdən qovulur. Artıq əllərindən heç nə gəlməyən ermənilər yenə də terror və təxribata əl atmağa başlayıblar.

## Aşot Paşinyan evdə gizlənibmiş

Ermənistanın özündə isə siyasi-ictimai vəziyyət kəskin dərinləşir. Həm də bu günlərdə Paşinyanın ailəsi sosial şəbəkələrin erməni seqmentində yenidən tənqid hədəfindədir. Buna səbəb baş nazirin həyat yoldaşı Anna Akopyan, oğlu Aşot Paşinyan və parlamentin sədri Ararat Mirzoyanın olduğu fotonun üzə çıxmasıdır. Belə ki, ermənilər həmin foto ilə Anna və oğlunu ifşa ediblər. Onlar paylaşımlarına istehza ilə "ön cəbhədə" yazıb və Paşinyan ailəsini xalqı aldatmaqda ittiham ediblər.

"168.am" nəşri yazıb ki, Anna Akopyan oğlu Aşotun guya Qarabağa döyüşə getdiyini bildirsə də, bu foto onun yalanını üzə çıxarıb: "Dağlıq Qarabağda qızğın döyüşlərin getdiyi, erməni əsgərlərin Azərbaycan Ordusu tərəfindən məhv edildiyi bir məqamda Paşinyanın oğlunun gülərək foto çəkdirməsi hiddət doğurub. Ermənilər qan ağlayır, Aşot isə isti evində öz kefindən qalmır. Müharibə onu göstərdi ki, insan həyatı Ermənistan hökuməti üçün heç bir əhəmiyyət daşımır. Onlar üçün yalnız ambisiyalar, naməlum qüvvələr qarşısındakı öhdəliklər, dumanlı siyasi hesablaşmalar mövcuddur və bunun bədəlini erməni xalqı çox ağır ödəyir. İndiki hökumət bilməlidir ki, bu gün, sabah, bir həftə sonra, bir ay sonra qisas vaxtı çatacaq. Ermənistan hakimiyyəti bunun cavabını verməlidir".

## Ermənilər danışıqların Ermənistana görə nəticəsiz qaldığını etiraf edirlər

Keçmiş prezident Levon Ter-Petrosyanın müşaviri, Ermənistan xarici işlər nazirinin sabiq müavini Jirayr Liparityan deyib ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar strategiyasını şərti olaraq iki dövrə bölmək olar: "Birinci dövr 1991-1998-ci, ikinci dövr isə 1998- 2020-ci illəri əhatə edir. Bu iki dövr arasında həlledici fərqi görmək olar. Ter-Petrosyanın rəhbərlik etdiyi birinci dövrdə münaqişə üzrə siyasət onun həlli yollarının fəal axtarışı ilə bağlı idi. Koçaryan, Sarkisyan və Paşinyan dövründə isə vəzifə status-kvonun saxlanmasından ibarət idi".

J.Liparityan bildirib ki, Ermənistan münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun və xüsusən Rusiyanın təkliflərinə uzun müddət məhəl qoymayıb. O qeyd edir ki, nizamlama üzrə danışıqların uğursuzluğuna səbəb olan bir çox amillər var. Erməni diasporuna toxunan J.Liparityan deyib: "Diasporun mövqeyinin yumşaq desək, Ermənistandakı vəziyyətin real qiymətləndirilməsindən uzaq, maksimalist olduğunu bildirsəm, yanılmaram. Azərbaycan əmin idi ki, neft gəlirləri hesabına beynəlxalq dəstək əldə etmək və hərbi əməliyyatlara başlamaq mümkün olacaq. Erməni tərəfi isə öz diasporunu Azərbaycan puluna ekvivalent sayırdı".

## Keşiş Ruben Mkrtçyan: "Paşinyan ruhi xəstədir, müalicəyə ehtiyacı var"

Xarici dövlətlərin və beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi də Ermənistanın işğal siyasətindən dünyada artan narazılığın real göstəricisidir. Ermənistan müharibə ilə yanaşı, bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir. Artıq birmənalı həqiqətdir ki, bu gün Ermənistanın varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından asılıdır. Əks təqdirdə çöküşü davam edəcək, sürətlə tənəzzül girdabına yuvarlanacaq.

Bunu əslində bütün dünyada, o cümlədən Ermənistanın özündə də kifayət qədər aydın sezirlər. Eyni zamanda işğalçı ölkədə yaxşı başa düşürlər ki, Azərbaycanla müharibə davam edərsə, onda Ermənistanın özündən belə əsər-əlamət qalmayacaq.

Moskvadakı Müqəddəs Pyotr monastırının keşişi Ruben Mkrtçyan "Facebook"da paylaşımında deyib ki, Nikol Paşinyan ruhi xəstədir, müalicəyə ehtiyacı var. O, Ermənistanı fəlakətə sürükləyir: "Qarabağdakı savaşa baxın... Ermənistanda kimsə acı həqiqətləri dinləmək, etiraf etmək istəmir. Paşinyanı hakimiyyətə gətirənlər onun psixikasında ciddi problemlər olduğunu bilirdilər. İndi bunu biz də bilirik. Belə nöqsanları olan insan heç bir ölkədə məsuliyyətli vəzifə tuta bilməz, tutmamalıdır. Əfsuslar olsun ki, Ermənistanda hələ də bəziləri Nikolun nə isə edə biləcəyinə inanırlar. Onlara zaman lazımdır ki, anlasınlar. Nikolsuz daha az itkilərimiz olacaq. Nikol getməlidir".

Ermənistanda N.Paşinyanla sabiq iqtidar təmsilçiləri arasında qarşıdurmanın miqyası getdikcə daha da artır. Sabiq prezidentlər, müxalif partiyanın təmsilçiləri və xaricdəki ermənilər Paşinyan iqtidarının daxili və xarici siyasətini indi daha sərt formada tənqid edirlər. Görünən odur ki, Ermənistanda cəmiyyət həyatının bütün sahələrini əhatə edən problemlər daha da dərinləşir və bununla da işğalçı dövlət düşdüyü bataqlıqdan çıxa bilməyəcək.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Coca-Cola
şirkəti
Azərbaycan xalqını
9 Noyabr - Dövlət Bayrağı Günü
münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və Azərbaycana ərazi bütövlüyü ilə əbədi müstəqillik arzulayır

# "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyi Ermənistanın cinayətləri ilə bağlı hesabat hazırlayıb

"Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində işğalçı Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı törətdiyi müharibə cinayətlərinin beynəlxalq humanitar hüquq kontekstində qiymətləndirilməsi ilə bağlı hesabatın təqdimatı keçirilib. Hesabat ingilis dilində hazırlanıb və beynəlxalq qurumlara təqdim olunması nəzərdə tutulub.

AZƏRTAC xəbər verir ki, tədbirdə "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri Ramil İskəndərli bildirib ki, təqdim olunan hesabat ümumilikdə Ermənistan ordusunun Azərbaycan mülki əhalisinə qarşı törətdiyi cinayətlər beynəlxalq hüquq normalarına nəzərən qiymətləndirilməsi və beynəlxalq təşkilatlardan münasibət bildirilməsi tələbi məqsədilə hazırlanıb.

Hesabat aşağıdakı məsələləri əhatə edir:

- Beynəlxalq hüquqda mülki şəxslərin qorunması;
- Qarabağ münaqişəsi haqqında bilməli olduğumuz bəzi faktlar;
- Ermənistan tərəfindən mülki şəxslərə edilən hücumlar və mülki itkilərin sayı;
- Atəşkəsin Ermənistan tərəfindən 3 dəfə pozulması;
- Bərdədə mülki şəxslərin kütləvi qətlləri;
- Gəncəyə raket zərbələri;
- Mülki insanlara humanitar dəstək;
- Ermənistandan neft kəmərinə raket zərbəsi;
- Azərbaycanın yalnız hərbi obyektlərə zərbə vurmaqla müharibə qanunlarına riayət etməsi;
- Beynəlxalq hüquqda silahlı qarşıdurmalarda qadın və uşaqların qorunması;
- Ermənistan ordusunda azyaşlı əsgərlərdən istifadə və beynəlxalq hüquqi aspektlər;
- Təhsil müəssisələrinin Ermənistan tərəfindən hərbi məqsədlər üçün istifadəsi;
- Uşaqların xüsusi qorunmasının beynəlxalq hüquq aspektləri;
- Mülki insanları qorumaq üçün Azərbaycan tərəfindən həyata keçirilən Ermənistanı sülhə məcburetmə siyasəti və beynəlxalq hüquq və doktrinalara uyğunluğu;
- Nəticə və beynəlxalq birliyə müraciət.

Hesabatın sonunda beynəlxalq təşkilatlara edilən müraciətdə Ermənistanın insanlığa qarşı törətdiyi bu müharibə cinayətlərinin qətiyyətlə pislənilməsi və təcavüzkara qarşı müvafiq tədbirlərin görülməsi tələb olunur.

# Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib

Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, noyabrın 7-də Müqəddəs Məryəm Ana Alban kilsəsinin bərpadan sonra açılışı olub.





Heydər Əliyev Fondunun əməkdaşı Zəhra Hacıyeva jurnalistlərə müsahibəsində bildirib ki, bu gün biz fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində maddi-mədəni irsə, tarixi abidələrə verilən dəyərin şahidi oluruq: "Layihə çərçivəsində abidələrin təmir-bərpası işləri Azərbaycanla yanaşı, Fransa, İtaliya, Rusiyanı əhatə edir. Fond bu ölkələrdə də bir çox tarixi abidələrin, kilsələrin təmir-bərpasını həyata keçirib və hazırda da edir. Heydər Əliyev Fondu tərəfindən görülən bu işlər bir daha Azərbaycanın multikultural dövlət olduğunu göstərir. Hazırda Qarabağın işğaldan azad olunan ərazilərinə baxdıqda məlum olur ki, ermənilər tarixi abidələrə qarşı vandalizm aktları törədib, məscidləri dağıdıblar. Azərbaycan dövləti isə kilsələri təmir edərək gələcək nəsillərə çatdırmağa çalışır. Nic qəsəbəsindəki bu Alban-udi kilsəsinin tikintisinə XII əsrdə başlanılıb, XVIII əsrdə başa çatdırılıb. Sonradan bu kilsə ermənilərin əsarətinə düşüb, onlar tərəfindən dağıdılaraq yararsız hala salınıb. Heydər Əliyev Fondu kilsənin təmirinə başlayıb və bərpa işləri başa çatdırılaraq bu gün istifadəyə verilib. Bu, Nic qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən təmir edilən ikinci kilsədir. 2006-cı ildə udilərin kompakt şəkildə yaşadığı Nic qəsəbəsində "Cotari" Alban-udi kilsəsi təmir edilmişdi. Tolerantlığın kiçik modeli olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var, xristianlarla müsəlmanlar bir yerdə həmişə mehriban yaşayıblar".

Azərbaycan Alban-udi xristian dini icmasının sədri Robert Mobili isə qeyd edib ki, Nic qəsəbəsində Müqəddəs Məryəm Ana Alban kilsəsinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunması və icmaya təhvil verilməsi tarixi hadisədir. Bu tarixi irsin yenidən bərpası Azərbaycanda multikultural dəyərlərə verilən önəmin bir göstəricisidir. "Azərbaycan bu gün işğal altındakı torpaqlarını düşməndən azad etmək üçün Vətən müharibəsi aparmasına, həmçinin pandemiyanın yayıldığı bir dövr olmasına baxmayaraq, ölkəmizdəki kilsələr, o cümlədən alban kilsəsi bərpa olunur. Bu isə Azərbaycanda multikulturalizmin hansı səviyyədə olduğunun bir göstəricisidir. Azərbaycan bir çox xalqların nümayəndələrinin mehriban şəkildə birgə yaşaması baxımından dünyaya bir örnəkdir".

Robert Mobili qeyd edib ki, fərqli millətlər bu diyarda mehriban və birgə yaşayırlar. "Biz bu gün həm də düşmənə qarşı birləşmişik. Cəbhədə olan əsgərlərin arasında Azərbaycanda yaşayan azsaylı millətlərin də nümayəndələri var. Çünki bu diyar hamımızın Vətənidir. Bizim dualarımız əsgərlərimizlədir. Azərbaycan öz torpaqlarının bərpası uğrunda müharibə aparır. Amma düşmən özgə torpağında döyüşür və ölür", - deyə o qeyd edib.

Azərbaycan Alban-udi xristian dini icmasının sədri erməni din xadimlərinin cəbhədə döyüşmələrinə də münasibət bildirərək deyib: "Düşmən tərəfindən yayılan görüntülərdən də görürük ki, erməni din xadimləri əllərinə silah alıb bizə qarşı vuruşurlar. Kilsədə erməni din xadimlərinə xeyir-dualar verilib döyüşə göndərilməsi səhnəsini görəndə dəhşətə gəldim. Məgər xristian dinində belə yanaşma, yəni insanları müharibəyə çağırış var? Həm İslamda, həm də İudaizmdə belə şey yoxdur. O cümlədən xristianlıqda. Xristian dinində qadağalardan birində deyilir ki, öldürmə! Amma biz erməni din xadimlərindən bunun əksini görürük. Digər tərəfdən, gəlin Azərbaycan həqiqətlərinə baxaq: burada fərqli xalqların, fərqli mədəniyyətlərin nümayəndələri bir yerdə mehriban şəkildə yaşayırlar. Udilər bu gün alban kilsəsinin varisləridir, xristianlığı qoruyub saxlayıblar. Ermənilər isə işğal altındakı torpaqlarda alban kilsələrini saxlataşdıraraq erməniləşdiriblər. Biz bu gün görürük ki, Qarabağa köçüb gələn ermənilər alban məbədləri ilə yanaşı, İslam məbədlərini, abidələri, tarixi yerləri silir, memarlıq üslubunu dəyişdirir və saxtalaşdırırlar. Amma Azərbaycanda bu dini məbədlər bərpa olunur".

Robert Mobili icma adından Müqəddəs Məryəm Ana Alban kilsəsinin bərpasına görə Heydər Əliyev Fonduna, onun rəhbərliyinə təşəkkürünü ifadə edib.

Qeyd edək ki, ölkəmizdə tarixən mövcud olmuş multikultural dəyərlər sisteminin - Xristian, İudaizm və İslam kimi üç səmavi dinin, bu dinlərə etiqad edən etnosların dini icmalarının və kilsə, sinaqoq və məscidlərin mövcud olduğu, eləcə də müxtəlif azsaylı xalq və etnik qrupların birgə yaşadığı regionlarımızdan biri də Qəbələ rayonudur. Dünyadakı 10 minə yaxın udinin 4 minə yaxını Qəbələnin Nic qəsəbəsində yaşayır.

Tarixi-dini abidələrimizin, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və yenidən qurulması, yeni ibadət evlərinin inşası Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Bu siyasətin reallaşdırılmasında Heydər Əliyev Fondu da yaxından iştirak edir.




# Heydər Əliyev Fondunun dəstəyi ilə "Mənim ürəyim Şuşa" musiqi kompozisiyası hazırlanıb

Azərbaycanın dilbər guşələrindən olan, Qarabağımızın döyünən qəlbi Şuşa hər birimizin qürur mənbəyidir. Xan Şuşinskinin səsini qoynunda saxlayan başı qarlı, vüqarlı dağları ilə əzəmətli görünən Şuşa hər bir azərbaycanlı üçün xüsusi önəm daşıyır.








Cənubi Qafqazın dəyərli mədəniyyət mərkəzlərindən biri olan Şuşa milli memarlıq üslubu ilə seçilən, orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi, mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə bəxş etdiyi tarixi şəxsiyyətləri ilə məşhur olub. Muğamımızın beşiyi sayılan, Qarabağın dilbər guşəsi Şuşa şəhəri əbədi olaraq Azərbaycanın mədəniyyət məbədidir.

Şuşanı "Şərqin konservatoriyası" və "Azərbaycanın musiqi beşiyi" adlandırırlar. Bu şəhər Azərbaycanın bir sıra görkəmli şair, müğənni, musiqiçi və böyük bəstəkarların vətənidir. Xurşidbanu Natəvan, Cabbar Qaryağdıoğlu, Bülbül, Xan Şuşinski, Üzeyir Hacıbəyli və digər dəyərli sənət adamları bu şəhərdə yaşayıb, bu şəhərdə yaradıblar.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın döyünən qəlbi, Qarabağın mirvarisi Şuşa haqqında musiqi kompozisiyası hazırlanıb. Layihə Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşıb. Şuşa haqqında kompozisiyanın müəllifi xaricdə yaşayan həmyerlimiz Anar Bramodur. Sözləri Çexiyada yaşayan azərbaycanlı tanınmış şairə Leyla Beqimə məxsus olan "Mənim ürəyim Şuşa" adlı mahnının musiqisi məhz Almaniyada yaşayan həmyerlimiz, məşhur skripkaçı Anar Bramo tərəfindən bəstələnib.

Musiqi kompozisiyasının çəkilişlərini Bakı Media Mərkəzi həyata keçirib. Azərbaycan, rus və ingilis dilində hazırlanan musiqi parçasını müvafiq olaraq Əməkdar artist Sevda Ələkbərzadə, Orxan Cəlilov və hazırda ABŞ-da yaşayan istedadlı müğənnimiz Ülviyyə Salayeva ifa ediblər. Musiqi kompozisiyasının çəkilişlərində dirijor Fuad İbrahimov və sənətçilər Kənan Bəşirli, Sahib Paşazadə, Anastasiya Avdeyeva, Nicat Məsimov, Naala Baratelia, "Lumineux" vokal-xor ansamblı və Bakı Kamera Orkestrindən ibarət yaradıcı kollektiv iştirak edib.

Azərbaycanın dilbər guşəsi, Qarabağın gözəllik simvolu Şuşa hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu gözəl şəhərdə ermənilər tərəfindən talan olunan mədəniyyət nümunələrimiz, məhv edilən tarixi abidələrimiz bərpa ediləcək. Yenə gözəl Cıdır düzü Azərbaycan igidlərinin məskəninə çevriləcək, doğmalarının nəfəsinə həsrət qalan xarı bülbül əsrarəngiz gözəlliyi ilə hamını valeh edəcək.

Şuşa Qarabağdır, Qarabağ isə Azərbaycandır! Şuşa, Vətənini, millətini sevən hər bir Azərbaycan vətəndaşı üçün doğma torpaq, əziz bir şəhərdir. Bu gün hər bir Azərbaycan vətəndaşı digər ərazilərimiz kimi, döyünən ürəyimiz - Şuşanın da azad olunacağı günü səbirsizliklə gözləyir.

Üç dildə olan musiqi kompozisiyasını Bakı Media Mərkəzinin rəsmi "YouTube" və digər sosial şəbəkə səhifələrində izləmək mümkündür:

**YouTube**
https://www.youtube.com/watch?v=1zm4bpNUOKQ
https://www.youtube.com/watch?v=LQGSl8nlOlg
https://www.youtube.com/watch?v=lTXms613aEw
**Facebook**
https://www.facebook.com/1402834436617491/posts/3009030299331222/
https://www.facebook.com/1402834436617491/posts/3009038955997023/
https://www.facebook.com/1402834436617491/posts/3009090969325155/
**Instagram**
https://www.instagram.com/tv/CHQQAcRpVeZ/?igshid=1dm4tb6yhkruh
https://www.instagram.com/tv/CHQiznQpyrN/?igshid=6jt0zditg2lz
https://www.instagram.com/tv/CHQkfluJpNn/?igshid=1kpxlflh17qb9

# "Azercell" ölkəmizdə ISO 37001:2016 "Antikorrupsiya idarəetmə sistemi" standartlarına uyğunluq sertifikatını alan ilk mobil operator oldu

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" MMC ISO 37001:2016 "Antikorrupsiya idarəetmə sistemi" standartlarına uyğunluq sertifikatını əldə edərək yalnız rabitədə deyil, korporativ mədəniyyət sahəsində də öz birinciliyini nümayiş etdirmiş oldu.




"Azercell"dən aldığımız məlumata görə, sertifikatlaşdırılma auditi ABŞ-ın ən böyük akkreditasiya qurumu olan ANAB (ANSI National Accreditation Board) tərəfindən akkreditə olunmuş Türkiyənin Denetik Uluslararası Belgelendirme ve Gözetim Hizmetleri şirkəti tərəfindən keçirilmişdir. ISO 37001:2016 standartları təşkilatlarda müxtəlif fəaliyyət istiqamətləri üzrə korrupsiya riskinin azaldılması məqsədilə daxili nəzarət sistemlərinin, proses və təlimatların yaradılmasını, tətbiqini, dövri olaraq effektivliyinin yoxlanmasını və təkmilləşdirilməsini tələb edir. Öz fəaliyyətində ənənəvi olaraq etik biznes standartlarını və şəffaflığı prioritet hesab edən "Azercell" şirkətində artıq bir neçə ildir ki, ən qabaqcıl nümunəyə uyğun antikorrupsiya proqramı mövcuddur. Antikorrupsiya idarəetmə sistemi şirkətlərdə fəaliyyətin bütün istiqamətləri üzrə korrupsiyanın qarşısının alınmasına xidmət etməklə, həmçinin etik davranışın təbliğ olunmasını, bu məqsədlə işçilərə təlimlərin verilməsini nəzərdə tutur. Standartların tələblərinə həmçinin maliyyə və qeyri-maliyyə nəzarətinin tətbiqi, korrupsiya halları barədə məlumat verilməsi üçün kanalların yaradılması, pozuntu hallarının araşdırılması, əməkdaşlıq edilən biznes subyektlərinin uyğunluq yoxlamasından keçirilməsi, həmin subyektlərdə korrupsiya riskinin azaldılması üzrə tədbirlərin görülməsi və s. aiddir. Təqdirəlayiq haldır ki, "Azercell"dəki antikorrupsiya idarəetmə sisteminin ISO 37001 standartlarının tələblərinə tam uyğun olmaqla bərabər, bir çox istiqamət üzrə bu sahədəki ən yaxşı təcrübəni əks etdirdiyi audit zamanı auditorlar tərəfindən xüsusi qeyd edilmişdir.

Qeyd edək ki, ISO 37001 standartları Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) tərəfindən 2016-cı ildə dərc edilmişdir. ISO 37001 korrupsiyaya qarşı mübarizə sahəsində ilk və qlobal səviyyədə qəbul edilmiş yeganə standart hesab edilir.

***"Azərbaycan"***


# "Kommunal Xidmətlər Müəssisəsi" MMC

## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT- Nəqliyyat və xüsusi texnikaların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT - 300 (üç yüz) manat**

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Hesab: AZ40RBTA16380600110944123566**
**VÖEN: 1502142751**
**Bank: "Rabitəbank" ASC Nəsimi filialı**
**Kodu: 508988**
**VÖEN: 9900001061**
**M/H: AZ61NABZ01350100000000006944**
**SWIFT: RBTAAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *malgöndərənin (podratçının) Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında məlumat;*
- *malgöndərənin (podratçının) müvafiq sahə üzrə fəaliyyətinə icazə verilən lisenziyalar və əsas şərtlər toplusuna uyğun olaraq ixtisas göstəricilərini müəyyən edən sənədlər;*

Tender təklifləri, eləcədə bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Malgöndərənlər (podratçılar) tender təkliflərini, eləcə də bütün sənədləri və müraciətləri dövlət satınalmaları üzrə vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Müsabiqədə göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər və təkliflər qəbul olunmayacaq. Malgöndərənlər (podratçılar) səlahiyyətli nümayəndələri Portala daxil olmaqla iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 30.11.2020-ci il saat 15:15-a qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə 08.12.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 09.12.2020-ci il saat 15:15-də Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7420
Sifariş 2583
Qiyməti 40 qəpik